KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 21 (132), 08 - 14 Avqust, Tebax sal 2011
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymǝti, Hêjaye 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Səbahəddin Eloğlu



Səh. 5

## "Azərbaycanın düşməni Gürcüstanın da düşmənidir"



## Serok Barzanî pêşwazî li kesayetiyên Bakurê Kurdistanê kir

Səh. 12



Səh. 2

## "Ankara Bakıdan hərəkət gözləyir



Səh. 3

## Tahir Süleyman: "Məni heç kim heç yerə dəvət etməyib, deyilənlər Rauf Arifoğlu kimilərin iftiralarıdır"



Səh. 16

## Итоги недели. "Ливийское решение" сирийской проблемы откладывается



Səh. 3

## Esir Askerin Babası Roj TV'de



Səh. 14

## Турецкие сумерки. Свободный Курдистан как гарант безопасности Израиля



Səh. 8-9

## Sabunçu Rayon İcra Hakimiyyətinin apardığı "ABADLIQ" işləri



Səh. 14

## Курды, нефть и независимость

# Ankara Bakıdan hərəkət gözləyir

## PKK ilə bağlı bəyanatdan məmnun qalan Türkiyə bu addımın davamını gözləyir

**Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın bu günlərdə Bakıya gerçəkləşdirdiyi ziyarət əsnasında Azərbaycan prezidentinin PKK-nı terrorçu təşkilat elan etməsi, daha doğrusu, dövlətimizin bu məsələdəki mövqeyini bir daha bəyan etməsi hələ də gündəmin ən aktual mövzularından olaraq qalır. İstər Ərdoğanın, istərsə də səfərdən 3 gün sonra Türkiyənin Azərbaycandakı səfiri Hülusi Kılıcın Azərbaycanın bu mövqeyindən məmnunluq ifadə etmələrinə, eyni zamanda qardaş ölkə mediasında "PKK ilə bağlı Azərbaycanın mövqeyi netləşdi" kimi düşüncələrə baxmayaraq, hər iki ölkədə çoxları bu qənaətdədir ki, bir bəyanatla problemin çözümü mümkünsüzdür, rəsmi Bakı nəhayət, sözdən əmələ keçərək Ankaranı rahatladacaq əməli addımlar atmalıdır.**



Təbii ki, Azərbaycanda hər hansı PKK yanlısının açıq-aşkar fəaliyyət göstərməsi və ya hansısa terrorçuya sığınacaq verilməsindən söhbət gedə bilməz. Odur ki, əməli iş dedikdə PKK simpatizanlarına nəzarətin gücləndirilməsi və ən əsası onların maliyyə qaynaqlarının tapılıb ifşa edilməsi nəzərdə tutulur. Heç kimə sirr deyil ki, adıçəkilən terror təşkilatı bu vaxtadək ideologiya fərqliliyi baxımından deyil, yalnız nəhəng maliyyə qaynaqlarından bəhrələnməklə Türkiyə kimi qüdrətli bir dövlətlə qarşı-qarşıya gəlməyə cəsarət edib və dünyanın çeşidli hərbi düşərgələrində təlim görmüş muzdluların xain saldırıları yalnız və yalnız külli miqdarda çirkli pulların hesabına gerçəkləşdirilib. Ona görə də Türkiyə ilə dostluqdan, qardaşlıqdan dəm vuran rəsmi Bakı unutmamalıdır ki, onların bəyanat sonrası davranışları və ya hərəkətsizlikləri Ankarada diqqətlə izlənilir və bu qardaşlığa xələl gəlməməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsinə ehtiyac var.

Təxirəsalınmaz tədbirlər dedikdə bəziləri elə hesab edir ki, parlament payız sessiyasının ilk iclasındaca PKK-nı terror təşkilatı elan edən xüsusi qanun qəbul etməlidir. Bir başqa mövqe də ondan ibarətdir ki, bütövlükdə Milli Məclis dünyada mövcud olan terror təşkilatları barədə qərar qəbul etməli, PKK da "iri hərflərlə" bu siyahıya daxil edilməlidir. Ancaq bu məsələdə cəmiyyətdə birmənalı mövqe yoxdur və hakimiyyət təmsilçiləri, o cümlədən bəzi politoloqlar belə hesab edir ki, prezidentin bəyanatı yetərlidir və parlamentin bu barədə hər hansı qərarına ehtiyac yoxdur.

Məsələn, millət vəkili, politoloq Rasim Musabəyov hesab edir ki, dünyanın heç bir ölkəsində belə bir təcrübə yoxdur və əslində heç parlamentin belə bir səlahiyyəti də yoxdur.: "Bu məsələni ya təhlükəsizlik orqanları qəbul edir, onlar həmin terrorçu təşkilatların siyahısını da tutur, o nəzarəti də həyata keçirir, ya da icra hakimiyyəti bu işi görür."

Gəlin görək, Rasim Musabəyovun dediyi kimi, bu işi Azərbaycanın xüsusi xidmət və təhlükəsizlik orqanları görürmü? Əlbəttə, bu işdə yüksək konfidensiallıq əsas şərt olduğundan adıçəkilən qurumların bu sahədə atdıqları, yaxud atmağa hazırlaşdıqları addımların nədən ibarət olduğunu müəyyənləşdirmək xeyli çətindir. Ancaq bir məsələ var ki, əgər doğrudan da rəsmi Bakı bu məsələdə aşkar səmimiyyət nümayiş etdirmək istəsə, çətinlik çəkməli olmayacaq. Çünki türkiyə MİT-nin əlində kifayət qədər ifşaedici materiallar var və neçə illərdir ki, rəsmi Ankaranın Bakının biganəliyindən qaynaqlanan incikliyi hər iki ölkə mətbuatının gündəminə ayaq açmaqdadır. Ona görə də səmimi istək olacağı təqdirdə Azərbaycandakı PKK tərəfdarlarının ifşa edilməsi, ən azı onların əl-ayaqlarının bağlanması və fealiyyətlərinin məhdudlaşdırılması o qədər də çətin olmayacaq. Əlbəttə, bu addımlar nə qədər gizli aparılsa belə, mətbuat bunlardan xəbər tutacaq, ona görə də hələlik bu sahədə hər hansı hərəketliliyin müşahidə olunmaması Bakının hələ də var-gəl etdiyindən xəbər verir, ancaq...

Ancaq ötən gün mətbuatda hakimiyyətə yaxın mənbəyə istinadən belə məlumat yayıldı ki, artıq rəsmi Bakı sözdən işə keçməyə hazırlaşır və tezliklə sensasion həbslərin keçiriləcəyi gözlənilir. Başqa bir iddiaya görə isə Azərbaycanın hüquq-mühafizə orqanları Bakıda nəşr olunan kürddilli "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanla da maraqlanır: "Tahir mətbuatda açıq şəkildə PKK-nı milli azadlıq hərəkatının təşkilatı adlandırır. Onun buraxdığı "Diplomat" qəzeti Bakıda və regionlarda kürdlərin kompakt yaşadığı yerlərdə pulsuz yayılır. O, bu yaxınlarda bir neçə kürdəsilli Azərbaycan vətəndaşının mətbuat konfransını təşkil etmişdi. Həmin tədbirdə ölkəmizdə yaşayan kürdlərə suverenlik verilməsi kimi absurd bir tələb səsləndirildi".

Məsələ ilə bağlı barəsində söhbət açılan "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanla əlaqə saxlayıb mövqeyini öyrəndik. O bildirdi ki, fikrində qətidir və "Azərbaycan prezidentindən fərqli olaraq PKK-nı bir terror təşkilatı kimi deyil, kürdlərin milli azdlıq hərəkatı kimi" qəbul edir: "Doğrudan da qəzeti hədsiz maliyyə çətinliyi ilə, ailə üzvlərimin əziyyəti hesabına çıxarırıq və onu demək olar ki, pulsuz paylayırıq. Təxminən min nüsxədir və həftədə bir dəfə çıxır. Qaldı o biri məsələyə, bura demokratik bir ölkədir. Prezidentimiz dövlətçiliyimiz, milli mənafeyimiz üçün nə qərar verirsə, bunu qəbul etməliyik. Amma bir vətəndaş olaraq PKK-nı "Kürdüstan" Milli Azadlıq Hərəkatı kimi qəbul edirəm. Siz də bu ölkədə qəbul olunan bütün qərarlara "hə" demirsiniz ki. Sizə bir faktı xatırladım. PKK-nı terror təşkilatı adlandıran Türkiyə dövləti Böyük Millət Məclisinə məhz bu təşkilatın dəstəyi ilə deputat seçilmiş şəxsləri dəvət etməkdən doymur, xahiş edirlər ki, gəlin bu məsələni parlamentdə həll edək. Digər tərəfdən, görəsən, nəyə görə Türkiyə Azərbaycan torpaqlarını işğal etmiş bir dövləti terrorçu adlandırmaq əvəzinə onunla separat danışıqlara gedərək Sürix protokolu imzalayır? Bu azmış kimi Ərdoğan "bəh- bəh"lə deyir ki, son vaxtlar minlərlə erməni Ermənistandan baş götürüb bu ölkəyə sığınıb".

T.Süleymandan son günlər açıq və ya gizli şəkildə izlənib-izlənmədiyini, bu barədə hər hansı şübhə və narahatlığının olub- olmadığını soruşduq. Bildirdi ki, sutkanın 24 saatı telefonlarının izlənildiyini çoxdan bilir, hələ bu izlənmə bir neçə dəfə onun həyatını da xilas edib: "İki dəfə bəzi "boz qurd"çular tərəfindən məni öldürməyə cəhd ediblər, hər ikisində də Milli Təhlükəsizlik Nazirliyi bu cəhdin qarşısını alıb. Hər dəfə tanımadığım adamlar dövriyyəyə girərək məni xilas ediblər".

**Kənan**

# Esir Askerin Babası Roj TV'de



Türk basını Lice'de HPG gerillaları tarafından esir alınan iki asker ve bir sağlık görevlisi konusundaki sessizliğini korurken askerleri ailelerine sadece RojTV yer veriyor. Bugün RojTV'de yayınlanan Rojaktüel programına katılan esir uzman çavuş Zihni Koç'un babası Veysel Koç kamuoyuna oğlunun serbest bırakılması için harekete geçilmesi çağrısında bulundu.

Koç'un çağrısına yanıt ise gecikmedi. Koç'un ardından yayına katılan sanatçı Ferhat Tunç ve İHD Genel Başkanı Öztürk Türkdoğan askerlerin serbest bırakılması için heyet kuracaklarını açıkladı.

Gazeteci Erdal Er'in sunduğu Rojaktuel programa bağlanan Veysel Koç kamuoyuna çağrıda bulunarak; oğlunun sağ selim ailesine kavuşması için sivil tolum örgütlerini devreye girmesini söyledi. Koç, "artık yeter, akan bu kan dursun. Herkesin bunun için çalışması lazım. Her iki taraftan da insanlar ölmesin. Ferhat Tunç daha önce Dersim'de bir erin serbest bırakılmasında rol oynadı. Ferhat Tunç'dan, Sayın başkan Öztürk Türkdoğan'dan ricam devreye girsinler" dedi.

Diğer asker ailelerini de duyarlı olmaya çağıran Koç, Erdal Er'in, "Siz de heyette yer alacak mısınız?" sorusuna "evet yer alacağım" diye yanıt verdi.

TUNÇ: OPERASYONLAR DURDURULSUN

Programda konuşan Ferhat Tunç da Koç'u cesaretinden dolayı kutladı ve heyetin kurulması için hemen çalışacağını, yarın sivil toplum örgütleri, İHD ile görüşeceğini söyledi. Çok kısa zamanda açıklama yapacaklarını söyledi.

Tunç, Çoşkun Kırandi sürecini hatırlatarak şunları söyledi: 'Devlet Kırandi'yi öldürmek istedi. Zorluklara rağmen Kırandi'yi sağ selim alıp ailesine teslim ettik ve bu büyük bir mutluluktu. Bu defada benzer bir durum söz konusu. Sanki askerleri öldürmek için uğraşılıyor. Öncelikle bu sürenin sağlıklı yürümesi için operasyonların durulması ve hükümetin adım atması lazım. Operasyonların durdurulması esir askerlerin can güvenliği için şart."

TÜRKDOĞAN: HEYET İÇİN VARIZ

Programda konuşan İHD Genel Başkanı Öztürk Türkdoğan ise; "Dernek olarak daha önce açıklama yaptık. Yaşam hakkı kutsaldır ve biz bunu savunuyoruz. Oluşacak heyet içinde yer almaya hazırız. Bu konu da herkesin yardımcı olması gerekiyor diye konuştu. Ailelerin bize başvurmalarını bekledik o da sizin aracılığınızla oldu. Yayından sonra ailelerle, sivil toplum örgütleriyle görüşüp heyeti kuracağız' dedi.

NE OLMUŞTU? Astsubay Abdullah Söpçeler, Uzman Çavuş Zihni Koç ve Sağlık Teknisyeni Aytekin Turhan Uz, 9 Temmuz'da Diyarbakır'ın Lice ilçesinde yol kesen gerillalar tarafından esir alınmış, görüntüleri 28 Temmuz'da ROJ TV ana haber bülteninde yayımlanmıştı.

Sivil kıyafetli oldukları görülen 2 asker ve 1 sağlık görevlisi, sağlık durumlarının iyi olduğunu belirterek, serbest bırakılmaları için aydınlara ve sivil toplum örgütlerinden yardım istemişti.

İlham Əliyevin verdiyi bəyanat hüquq-mühafizə orqanlarını hərəkətə keçirib; qanlı hörgütə ideoloji və maddi dəstək verən şəxslər və qurumlar zərərsizləşdirilə bilər

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Bakıya son səfəri zamanı prezident İlham Əliyev PKK barədə açıqlama verdi. Azərbaycan prezidenti bəyan etdi ki, onun ölkəsi PKK-nı terror təşkilatı kimi tanıyır. Hələlik Azərbaycanın PKK-nı terror təşkilatı kimi tanıması de-yure rəsmiləşdirilməyib. Yəni Milli Məclis bu haqda hər hansı bir rəsmi sənəd qəbul etməyib. Baxmayaraq ki, bununla bağlı parlamentdə dəfələrlə məsələ qaldırılıb. Hətta bir neçə il öncə Müsavat deputat qrupu MM rəhbərliyinə qanun layihəsi təqdim etmişdi. Bütün bunlara baxmayaraq, İ.Əliyevin məlum bəyanatı Azərbaycan və Türkiyə ictimaiyyətində



# BAKIDAKI PKK TƏRƏFDARLARI NƏZARƏTƏ GÖTÜRÜLÜR



## Tahir Süleyman: "Məni heç kim heç yerə dəvət etməyib, deyilənlər Rauf Arifoğlu kimilərin iftiralarıdır"

son dərəcə maraqla qarşılanıb.Ərdoğanla Əliyevin arasında keçirilmiş qapalı danışıqlardan sonra verilən bu bəyanat ilk növbədə Türkiyə tərəfini razı salıb. İki gün öncə mətbuat konfransı keçirən Türkiyənin Bakıdakı səfiri Hulusi Kılıç İlham Əliyevin PKK ilə bağlı açıqlamasının onları məmnun etdiyini deyib: "Cənab prezident PKK-nın terror təşkilatı olduğunu açıqca söylədi. Bu, həm baş nazirimiz, həm də türk xalqı tərəfindən məmnuniyyətlə qarşılandı".

Məsələnin ən maraqlı tərəfi isə ondan ibarətdir ki, artıq Azərbaycanda müvafiq qurumlar prezidentin bəyanatının reallaşması istiqamətində fəaliyyətə keçiblər. Bu barədə qəzetimizə məlumat mötəbər mənbələrdən daxil olub. Məlumatda bildirilir ki, Azərbaycan hüquq-mühafizə və təhlükəsizlik orqanları ölkədə mövcud olan PKK yanlısı qurumlar və şəxslərlə maraqlanmağa başlayıb. Bu işdə ilk öncə hədəf kimi PKK-ya açıq və gizli dəstək verən ideoloji ruporlar və onların başında dayanan şəxslər götürülüb. Mənbəmiz iddia edir ki, həmçinin Türkiyədən ölkəmizə gəlib iş quran xeyli sayda PKK simpatizanı olan şəxslərin də siyahısı hazırlanır. Bunların içində uzun illərdir Türkiyə polisinin axtardığı şəxslərin də olduğu vurğulanır. Belələrinin Azərbaycanda rahat yaşaması, fəaliyyət göstərməsi, üstəlik, onlara para qazanmaları üçün münbit şərait yaradılması qardaş ölkə rəsmilərini ciddi şəkildə narahat edir. PKK simpatizanı olan xeyli sayda kürd iş adamı Bakıda, Naxçıvanda, Gəncədə və digər bölgələrdə şirkətlər qurublar, pul qazanırlar və hətta qazandıqları paralardan PKK-ya yardım da edirlər. Bu haqda Türkiyə və Azərbaycan mediası zaman-zaman yazıb. Rəsmi Ankara Azərbaycana sığınmış hörgütçüləri bir neçə dəfə istəsə də hansısa səbəbdən Azərbaycan yönətimi bu istəyi geri çevirib. İndi isə vəziyyət dəyişib. Əlimizdə olan xəbər deməyə əsas verir ki, artıq bizim hökumət anti-PKK əməliyyatının düyməsinə basıb. Hakimiyyətə yaxın mənbələrdən gələn xəbərlərdə o da deyilir ki, yaxın günlərdə Bakıda və digər bölgələrdə sensasion həbslər keçirilə, PKK-ya bağlı Türkiyə vətəndaşı olan (və olmayan) kürdəsilli iş adamları saxlanaraq türk polisinə təslim edilə bilər. Yaxud da onların üçüncü ölkəyə verilməsi istiqamətində iş görülə bilər.

Mənbəmiz onu da dedi ki, hüquq-mühafizə orqanları "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanla da maraqlanır: "Tahir mətbuatda açıq şəkildə PKK-nı dəstəkləyir, bu qanlı hörgütü kürd xalqının milli-azadlıq hərəkatının təşkilatı adlandırır. Onun buraxdığı "Diplomat" qəzeti Bakıda və regionlarda kürdlərin kompakt yaşadığı yerlərdə pulsuz yayılır. O, bu yaxınlarda bir neçə kürdəsilli Azərbaycan vətəndaşının mətbuat konfransını təşkil etmişdi. Həmin tədbirdə ölkəmizdə yaşayan kürdlərə suverenlik verilməsi kimi absurd bir tələb səsləndirildi".

Qeyd edək ki, hələ bir neçə il əvvəl Bakıya səfərə gələn Türkiyə ədliyyə naziri Cəmil Çiçək Azərbaycanda fəaliyyət göstərən PKK-çıların adları olan siyahısını bizim rəsmilərə təqdim etmişdi. Həmin vaxt Azərbaycanda PKK yanlılarının təqib olunacağı gözlənilsə də, bu, baş vermədi.

Mövzu ilə bağlı adının açıqlanmaması şərti ilə qəzetimizə danışan ekspert Azərbaycandakı PKK yanlılarının siyahısının hökumətə bəlli olduğunu və bu qrupların nəzarət altında olduğunu bildirdi. Ekspertin sözlərinə görə, son illərdə PKK yanlısı iş adamları Bakıda rahat şəkildə biznes şəbəkəsi qurublar. Terrorun əsas "qidasının" maliyyə olduğunu deyən həmsöhbətimiz Bakıda qazanılan pulların böyük qisminin PKK düşərgələrinin saxlanmasına sərf olunduğu haqda ciddi məlumatların olduğunu bildirdi. Ekspertin qənaətincə, ciddi siyasi qərar olacağı halda Bakıda geniş miqyaslı həbslərin və ya ən yaxşı halda deportasiyaların olması mümkündür.



***

Son zamanlar Azərbaycanda fəaliyyət göstərən PKK simpatizanı olan iş adamları ilə Türkiyədən gələn türklərin münasibətləri pisləşib. Əldə etdiyimiz məlumatlara görə, son dövrlərdə PKK yanlıları ilə Türkiyə türkləri arasında kiçik çaplı münaqişələr də qeydə alınıb. Artıq Bakıdakı bir sıra PKK tərəfdarına məxsus obyektlər türklər tərəfindən boykot edilib. Münaqişə baş verən obyektlərdən biri də "Böyükfırat" kafelər şəbəkəsi olduğu bildirilir.

Azərbaycan hökumətinin bu məsələdə nə dərəcədə səmimi olub-olmadığı yaxın günlərdə bilinəcək. Çünki PKK əleyhinə iş görmək üçün bizim iqtidar gərək lap yuxarıdan başlasın. Sirr deyil ki, hazırkı iqtidar komandasında PKK ilə əlaqəsi olduğu bildirilən bir neçə iri fiqurun mövcudluğuna dair iddialar var. Hətta PKK lideri Abdulla Öcalan 1999-cu ilin iyununda məhkəməsində etiraf etmişdi ki, keçmiş sovet respublikaları içində ən ciddi təşkilatları Azərbaycandadır.

Mövzunu davam etdirəcəyik.

***Kənan RÖVŞƏNOĞLU, musavat.com***

# PKK – NIN TANINMASI HAQDA QANUN

Bu qanun Azərbaycanda terrorizmə qarşı mübarizə məsələsinin əlavə hüquqi təminatlarının yaradılması məqsədilə qəbul edilir.

**Maddə1.** PKK terror təşkilatıdır.

**Maddə 2**. Bu qanun çərçivəsində PKK termini 1978 – ci ildə Türkiyədə Abdullah Ocalan tərəfindən yaradılmış, bu qanun qəbul dövrdə Partiya Karkarane Kürdistan (Kürd fəhlə partiyası) adı ilə fəaliyyət göstərən təşkilat mənasını ifadə edir.

**Maddə 3**. Bu qanunda terror təşkilatı "Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası qanunun 1- ci maddəsində olduğu mənada başa düşülür.

**Maddə 4**. PKK- nın fəaliyyətində iştirak (üzvlük) və ya maliyyyələşdirilməsində iştirak etmək, Azərbaycan Respublikasə CM- nin 214; 214-1; 214-2 maddəlri ilə cinayət məsuliyyətinə səbəb olur.

**P.S:** Qanun layihəsi Müsavat deputat qrupunun üzvü Pənah Hüseyn tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə 18.02. 2008- ci il tarixdə təqdim olunmuş və 103 N- si ilə qeydə alınmışdır. Milli Məclisin rəhbərliyi və "Yeni Azərbaycan" partiyasını təmsil edən deputat çoxluğu Azərbaycan Respublikası Konstitusiyasının 96- cı maddəsinin, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 14- cu maddəsinin, Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında 4, 9- cu maddələrinin və digər qanunvericilik norma və qaydalarını kobud şəkildə pozaraq qanun layihəsini müzakirəyə buraxmamışdır.

***musavat.com***

# «Ermənilər yunanlardan da pis vəziyyətə düşəcək»

*Yusuf Halaçoğlu: "Sərkisyan işğalı etiraf etdikcə Türkiyə ilə Azərbaycan daha da yaxınlaşır"*



"Ermənistan son vaxtlarda Türkiyədə separatçıların bəzi əməllərindən iştaha gələrək gündəmə mənasız iddialar gətirir. Ancaq heç kim unutmamalıdır ki, Türkiyə nə separatçılara, nə də mənasız erməni iddialarına meydan verəcək qədər zəif bir ölkə deyil". Bu açıqlamanı APA-nın Türkiyə bürosuna Türk Tarix Qurumunun sabiq rəhbəri, Milliyyətçi Hərəkat Partiyası Kayseri millət vəkili, professor Yusuf Halaçoğlu verib.

Onun sözlərinə görə, artıq Ermənistan nə edəcəyini bilməyən bir vəziyyətə düşüb: "Keçmişdə olduğu kimi, artıq ABŞ da Ermənistanı "soyqırımı" məsələlərində dəstəkləmir. Çünki Orta Şərqdəki problemlərini həll etməsi üçün ABŞ-ın Türkiyəyə qeydsiz-şərtsiz daha çox ehtiyacı var. Ona görə də Ermənistanın "Ağrı dağı xəyalları"nın heç bir mənası yoxdur. Bu proseslər Türkiyənin "Ermənistan açılımı"nın da nə qədər səhv bir siyasət olduğunu ortaya çıxarıb. Əslində bu proseslər Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri daha da gücləndirir. Demək ki, "hər şərdə bir xeyir vardır". Ona görə də qoyun, onlar mənasız şəkildə danışmağa davam etsinlər. Burada əsas məsələlərdən biri - Azərbaycanın bu dönəmdən yaxşı istifadə etməsidir. Azərbaycan öz iqtisadiyyatının inkişafını bu dönəmdə ən yaxşı şəkildə tamamlamalıdır. Bilirsiniz ki, bir ölkənin iqtisadi gücü - onun siyasi gücü deməkdir. Bu baxımdan öz iqtisadiyyatını gücləndirən Azərbaycan yaxşı yoldadır. İqtisadi çöküş içində olan hər bir dövlət əvvəl-axır qonşularına möhtac olur. Yunanıstanı görürsünüz - ada satmaq vəziyyətinə gəldilər. Ermənistan ondan daha pis duruma düşəcək. Ermənistan qonşusunda iqtisadi əlaqə yarada biləcək ölkələrin hamısı ilə problemli vəziyyətdədir - İran istisna olmaqla. Dövlətlər arasında yeni ortaq qurumlar yaradılmasına ehtiyac var ki, bu da enerji mərkəzli ölkələrin önəmini daha da artırmaqdadır. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da dərinləşdirilməsi bu baxımdan da çox böyük önəm daşıyır".

# "İLHAM ƏLİYEVİN PKK İLƏ BAĞLI DEDİKLƏRİ TÜRKİYƏNİ MƏMNUN EDİB"

## *Hulusi Kılıc: "Amma qardaşlar arasında viza olmamalıdır"*

*Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç bu ölkənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərinin yekunları ilə bağlı mətbuat konfransı keçirdi. Öncə bütün müsəlmanları Ramazan ayı münasibətilə təbrik edən səfir mətbuat nümayəndələri ilə bir neçə aydır görüşə bilməməsini işlərinin çoxluğu ilə əlaqələndirdi: "Amma vaxt məhdudiyyətinə baxmayaraq baş nazirimizin Azərbaycana səfəri ilə bağlı sizinlə söhbət etmək istədim. Baş nazir parlament seçkilərindən sonra ilk səfərini Azərbaycana edəcəyini demişdi. Lakin Şimali Kiprin yaranmasının 37-ci ildönümü ilə bağlı ilk səfərini ora etdi. Daha sonra Azərbaycana gəldi, bu, qardaş ölkəyə önəmin göstəricisidir. Çox faydalı bir görüşlər oldu. Bu səfəri mən tarixi bir ziyarət hesab edirəm".*

H.Kılıc dedi ki, Ərdoğanın səfəri zamanı bir çox sahələr üzrə danışıqlar aparılıb: "Ötən il Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu ilin sonunda isə bunun 3 milyard dollar olacağını söyləyə bilərəm. Təyyarə reyslərinin durmadan artması da əlaqələrin artmasının göstəricisidir".

Səfir nəzərə çatdırdı ki, Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının birinci iclasının bu ilin sonunadək Türkiyədə keçirilməsi planlaşdırılır: "Şuranın birinci iclasında 15 məsələ müzakirəyə çıxarılacaq. Müxtəlif sahələrdə - mədəniyyət, informasiya, investisiyaların yatırımı, təşviqi və digər sahələr üzrə müqavilələrin imzalanması da nəzərdə tutulur".

Səfir nəzərə çatdırdı ki, Ərdoğanın səfəri zamanı prezident İlham Əliyevin PKK ilə bağlı açıqlaması onları məmnun edib: "Cənab prezident PKK-nın terror təşkilatı olduğunu açıqca söylədi. Bu, həm baş nazirimiz, həm də türk xalqı tərəfindən məmnuniyyətlə qarşılandı".

Səfir ermənilərin Ramazan ayında da Azərbaycan ordusunun əsgərini şəhid etməsi məsələsinə toxundu: "İki gün öncə şəhid olan əsgərin ailəsinə başsağlığı verirəm".

H.Kılıc diqqətə çatdırdı ki, Ərdoğan səfəri zamanı əsas müzakirə edilən məsələlərdən biri də Dağlıq Qarabağ mövzusu olub: "Son duruma dair müzakirələr zamanı tərəflər bir-birinə bilgilər veriblər. Baş nazirimiz burada açıqlama verərkən bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın qanayan yarası olduğu kimi, Türkiyənin də qanayan yarasıdır. Bu kəlmənin içərisində hər şey - səmimiyyət, qardaşlıq var. Biz 18 ildir Dağlıq Qarabağın işğalı ilə bağlı Ermənistanla sərhədlərimizi bağlamışıq. Dünyada bunun ayrı bir örnəyi yoxdur. Heç bir dövlət başqa bir dövlət üçün öz sərhədini bağlamaz. Bunun nə qədər mühüm bir şey olduğunu anlamaq lazımdır. Bu adi bir küçə qapısı deyil. Bu, bizim Azərbaycanla qardaşlığımızın bariz nümunəsidir. Biz bölgədə ədalətli bir sülhün olmasının tərəfdarıyıq. Türkiyənin Ermənistanla problemlərinin çözülməsi üçün Azərbaycanla Ermənistanın problemləri həllini tapmalıdır. Mümkün deyil ki, iki qardaşdan biri ilə yaxşı münasibət qurasan, digəri ilə düşmən olasan. Belə bir şey olmayacaq. Biz Azərbaycanın yanında olmaqda davam edəcəyik. Çünki biz haqqın yanındayıq".

Türkiyə ilə Azərbaycan arasında viza rejiminin tam aradan qaldırılması məsələsinə toxunan səfir dedi ki, artıq onlar



Gürcüstanla ikitərəfli qaydada viza rejimini ləğv ediblər: "Bir çox ölkələrlə bu rejimi aradan qaldırdıq, hətta Rusiya ilə. Türkiyə tam 4 il öncə Azərbaycanla vizanı aradan qaldırdıq. İnşallah, qısa bir zamanda Azərbaycan da buna hazır olur. Türk xalqı bundan məmnun olacaq, heç şübhəsiz Azərbaycan xalqı da viza rejiminin aradan qalxmasını istəyir. Türkiyəyə gedən Azərbaycan vətəndaşlarının orada bir ay vizasız qala bilirlər. Biz bunu üç aya qədər artırmaq istəyirik. İnşallah, Azərbaycan da vizanı aradan qaldırar. Qardaşlar arasında vizanın olmamalıdır. Bunun ən qısa zamanda baş verəcəyinə inanıram".

Səfirin sözlərinə görə, Azərbaycan və Türkiyə Azərbaycan qazının Avropaya tədarükü ilə bağlı tranzit sazişi üzrə razılaşmaya cari ilin sentyabrında nail olmağı planlaşdırırlar. O dedi ki, bu sazişlə bağlı danışıqlar uğurla irəliləyir.

Jurnalistlərin suallarını cavablandıran səfir Ermənistan prezidenti Serj Sərkisyanın Ərdoğanın səfəri ərəfəsində "Qarabağı biz aldıq, Ağrı dağını gələcək nəsil alar" kimi açıqlamasına baş nazirin cavab verdiyini dedi: "Hər kəs iddialı ola bilər, amma nəticəyə baxmaq lazımdır. Baş nazirimiz bunun cavabını açıqca verdi. Mən ayrıca Ermənistan prezidentinə bununla bağlı hansısa cavab vermək istəmirəm, çünki hər şey söylənildi. Biz bunu ciddiyə almırıq".

Türkiyədə ordu rəhbərliyinin istefasına dair sualı cavablandıran H.Kılıc bu istefaların nə ordunun gücünə, nə ölkə daxili, nə də xarici siyasətə heç bir təsir göstərməyəcəyini diqqətə çatdırdı: "Demokratiya olduğu halda siyasi qərarları mülki qurumlar verir. Türkiyə Silahlı Qüvvələri rəhbərliyinin istefa verməsi hərbçilərin demokratiyaya göstərdiyi hörmətdir. Bu baxımdan da Türk Silahlı Qüvvələrinin bir neçə generalının istefaya getməsi narahatlıq yaratmamalıdır. Türkiyə ordusu çox güclüdür".

Qəbələ RLS-in birgə istifadəsində Türkiyənin maraqlı olması barədə yayılan xəbərlərə dair suala cavabında səfir bunun Türkiyənin planında olmadığını dedi: "Ankara bu stansiyanın istifadəsində iştirak etmək niyyətində deyil. Bu məsələ səfər çərçivəsində müzakirə olunmadı".

Ərdoğanın səfər zamanı Azərbaycanın siyasi partiyaları və QHT-ləri ilə görüşməməsi barədə sualı cavablandıran səfir bunu baş nazirin səfər proqramının sıxlığı ilə bağlayıb: "Amma önümüzdəki dönəmdə ola bilsin ki, vətəndaş cəmiyyəti təşkilatları ilə görüşsün".

***Elşad MƏMMƏDLİ***

# PKK-nın RƏSMƏN TANINMASI MƏSƏLƏSİ REALLAŞA BİLƏR



## Fəzail Ağamalı: "Məsələnin öz həllini tapmasında problem görmürəm"

"Ölkə prezidenti səviyyəsində PKK terrorçu təşkilat kimi bir daha tanınırsa, buna hansısa bir hüquqi qiymətin verilib-verilməməsi, məncə, ciddi əhəmiyyət kəsb eləmir". Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı bu fikirləri ölkə başçısı İlham Əliyevin Ərdoğanla görüş zamanı PPK-nı terrorçu təşkilat adlandırmasından sonra gündəmə gələn PKK mövzusunda danışarkən bildirdi.

Qeyd edək ki, bir çox ekspertlər və siyasətçilər prezidentin fikirlərindən sonra hüquqi addımın atılmasına ehtiyac olduğunu və məsələnin parlamentə çıxarılmasının zəruriliyini bildirir.

F.Ağamalı bir neçə il bundan qabaq prezident Abdulla Gülün Azərbaycana səfəri zamanı Azərbaycan və Türkiyə prezidentlərinin keçirdikləri mətbuat konfransında ölkə prezidenti İlham Əliyevin Türkiyəyə qarşı terroru pislədiyi və bunun birmənalı olaraq Azərbaycanı da narahat etdiyi barədə fikirlərini də xatırlatdı. Qeyd etdi ki, bugünlərdə ölkə prezidenti artıq ikinci dəfə məsələnin üstünə qayıtdı və PKK-nı terrorçu təşkilat kimi özü adı ilə adlandırdı: "Belə bir mövqe ifadə olunubsa, artıq bu, ən böyük qiymətdir. Azərbaycan prezidenti Azərbaycan dövləti adından danışıb. Düşünmürəm ki, təzədən Milli Məclisdə bu barədə məsələ qaldırmaq və PKK-nı terrorçu təşkilat kimi qiymətləndirmək üçün xüsusi iclas keçirmək lazımdır. Dövlət başçısı Azərbaycan dövlətinin mövqeyini, Azərbaycan xalqının iradəsini ifadə edərək PPK-nı terrorçu təşkilat kimi qiymətləndirdi. Bundan yüksək qiymət nə ola bilər?"

F.Ağamalı PKK-ya qarşı hüquqi addımların atılması üçün qanun qəbul olunmasında da problem görmədiyini vurğuladı: "Zəruri olarsa, bu məsələ gündəmə gələ bilər. Məsələnin də öz həllini tapmasında hər hansı problem görmürəm". AVP sədri belə bir qanunun qəbuluna PKK-ya rəğbət bəsləyən və ya bu təşkilatı dəstəkləyən hansısa qüvvələrin mane olduğunu güman etmir: "Bu, mümkün olan şey deyil. Azərbaycanda PKK-ya belə bir dəstək yoxdur. Sadəcə, ola bilsin ki, ayrı-ayrı şəxslər, fərdlər öz içində PKK-ya rəğbət bəsləyə bilər. Lakin bu rəğbət onun düşüncələrindən o tərəfə keçə bilmir. Azərbaycanda PKK-nı dəstəkləyə biləcək qrup və ya dəstə varsa, əlbəttə ki, onlar Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən dərhal zərərsizləşdirilər və onlar məhkəmə qarşısında cavab verməli olarlar".

F.Ağamalı Azərbaycanda hətta PKK-nı "milli azadlıq hərəkatı aparan" təşkilat kimi xarakterizə edən şəxslərin olduğu və bu barədə fikirlərin mətbuata da yol tapdığı barədə faktların qarşısını almağa çağırdı: "Vaxtilə mən də bununla bağlı öz fikrimi ifadə etmişdim. Görünür, bu, ya hüquqi nihilizmdən irəli gələn məsələ, yaxud birmənalı olaraq PKK-nı dəstəkləyən bir şəxsdir. Bunun üçün də Azərbaycanın hüquq-mühafizə orqanları araşdırmalar aparmalı və məsələyə aydınlıq gətirməlidirlər".

Hüquqşünas Əlövsət Əliyev isə fərqli düşünür. Konstitusiyaya görə, Azərbaycanın hüquqi dövlət olduğunu qeyd edən Ə.Əliyev deyir ki, PKK məsələsinə münasibətdə də bütün məsələlər hüquqla və qanunla tənzimlənməlidir: "Parlamentdə də bəzi deputatlar tərəfindən dəfələrlə bu məsələ qaldırılıb. Terrorçu təşkilat olaraq PKK-ya münasibət də Azərbaycanın rəsmi orqanları və qanunverici orqanı tərəfindən bildirilməlidir. Azərbaycanın həmin təşkilatı terrorçu təşkilat kimi tanıması ilə bağlı müzakirələr aparılmalı, müvafiq sənəd, qanun qəbul edilməlidir. Dünyanın əksər ölkələrində bu təcrübə mövcuddur. Bu cür təşkilatların terrorçu təşkilat kimi tanınması həmin təşkilatı Azərbaycan Respublikasında müəyyən hüquqları həyata keçirməkdən və addımlarını reallaşdırmaqdan avtomatik məhrum edəcək. Həmin təşkilat üzvlərinin Azərbaycana gəlişinə qadağa qoyulacaq, bu təşkilatlarla bağlı insanların hərəkətlərinə, siyasi fəaliyyətinə məhdudiyyət qoyulacaq.



## Əlövsət Əliyev: "Bu tanınma Azərbaycanda PKK-ya dəstək verənlərin fəaliyyətinin dayanmasına gətirəcək"

Həmçinin o təşkilatın rəsmi embleminin, rəmzlərinin Azərbaycanda tanınması üzərində qadağa qoyulacaq".

Hüquqşünasa görə, bunu hər hansı bir dövlət məmuru, yaxud ölkə prezidenti öz istəyi ilə həyata keçirə bilməz: "Bu baxımdan məsələlərin qanunla tənzimlənməsi vacibdir. PKK-nın terrorçu təşkilat kimi tanınması eyni zamanda Azərbaycanda həmin təşkilata qeyri-rəsmi formada dəstək verənlərin fəaliyyətini dayandırmasına səbəb olacaq. Bu mənada nə Azərbaycan rəsmiləri, nə dövlət məmurları məsələdən narahat olmalı deyillər. Həmin təşkilatın terrorçu təşkilat kimi tanınmasının təmin olunması üçün müvafiq tədbirlər görməli, parlamentdə bunun tərəfdarı olan deputatlara dəstək verməlidirlər".

***E.PAŞASOY***

# «Qəbələ RLS Türkiyəyə maraqlı deyil»

## *Türkiyə səfiri Ərdoğanın səfərinin yekunları ilə bağlı mətbuat konfransı keçirdi*

Dünən Türkiyənin Azərbaycandakı səfiri Hülusi Kılıc baş nazir Rəcəb Tayyib Ərdoğann Bakı səfərinin yekunlarına həsr olunmuş mətbuat konfransı keçirdi.

Ərdoğanın Azərbaycana səfərini tarixi səfər kimi dəyərləndirən səfir Türkiyədə keçirilən parlament seçkilərindən sonra baş nazirin ilk olaraq Azərbaycana gəldiyinə diqqət çəkib: “Düzdür, baş nazir Quzey Kıprız Türk Cümhuriyyətində (QKTC) olub, QKTC-nin 37 -ci ildönümü ilə bağlı tədbirlərə qatılıb. Türkiyə ilə QKTC-nin münasibətləri bəllidir. Baş naziri səfərdə 4 nazir müşayiət edib. Səfər zamanı xarici işlər, iqtisadiyyat və enerji nazirləri arasında təkbətək görüşlər keçirilib”.

H.Kılıc bildirib ki, səfər zamanı əsasən regional məsələlər, Dağlıq Qarabağ münaqişəsi, viza problemi, türk dünyasında vəziyyət müzakirə olunub: “Həmçinin iki ölkə arasında ticarət, iqtisadi məsələlər də diqqət mərkəzində olub. Ötən il iki ölkə arasında mal dövriyyəsi 2 milyard dollar təkşil edib. Bu ilin 5 ayı üçün bu rəqəm 1,4 milyarda çatıb. Deyə bilərik ki, ilin sonuna qədər bu rəqəm 3 milyarda çatacaq. “AZAL” Türkiyəyə həftədə 39 reys həyata keçirir. Həftədə 4 dəfə Bakıdan Ankaraya, 14 dəfə İstanbula, 10 dəfə Antaliyaya, 2 dəfə Bodruma və Trabzona reyslər var. Həmçinin, Naxçıvanla bağlı uçuşlar həyata keçirir. Bu iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunun açıq göstəricisidir”.

Səfir əlavə etdi ki, Bakıda aparılan müzakirələr zamanı bir sıra qərarlar qəbul edilib: “Qərara alınıb ki, iki ölkə arasında Strateji Əməkdaşlıq Şurasının toplantısı ilin sonuna qədər Türkiyədə keçirilsin. Terror mövzusu da müzakirə edilib, məsləhətləşmələr aparılıb. Azərbaycan prezidentinin PKK-nın terror təşkilatı olduğunu bəyan etməsi məmuniyyətlə qarşılanıb. Həmçinin, Dağlıq Qarabağla bağlı son hadisələr haqqında məsləhətləşmələr aparılıb. Türkiyə Azərbaycan torpaqlarının işğal edilməsi səbəbindən sərhədlərini 18 ildir ki, Ermənistanın üzərinə bağlayıb. Dünyada bunun örnəyi yoxdur. Mən istərdim ki, bunu diqqətə alasınız. Biz bölgədə sülhün tərəfdarı olmuşuq. Bunun üçün Ermənistan Azərbaycan torpaqlarını işğaldan azad etməli, Türkiyəyə qarşı iddialarını dayandırmalıdır. Ermənistan Türkiyə ilə problemlərini yoluna qoymaqla barış əldə olunmaz. Bir qardaşla barışıb, digəri ilə düşmənçiliyi davam etdirmək mümkün deyil. Barışın olması üçün Ermənistan həm Türkiyə, həm də Azərbaycanla problemləri həll etməlidir”.

Hülusi Kılıc dedi ki, səfər zamanı viza mövzusu da müzakirə edilib: “Azərbaycan prezidenti bəyan etdi ki, hələlik vizanın aradan qaldırılmasına hazır deyilik. Biz bu mövqeyi sayğı ilə qarşılayırıq. Türkiyə Gürcüstan, Rusiya, Suriya və digər dövlətlərlə viza sistemini aradan qaldırıb. Azərbaycanla bağlı viza rejimi 4 ildir ki, qaldırılıb. Azərbaycan da vizanı aradan qaldıranda türk xalqı məmnun olardı. İndi Türkiyəyə gedən Azərbaycan vətəndaşı vizasız 1 ay müddətində orada qala bilir. Biz istəyirik ki, bu müddəti 3 aya qaldıraq. Strateji tərəfdaş ölkələri üçün belə addımlar atılmalıdır”.

İki ölkə arasında aparılan qaz danışıqlarına toxunan səfir deyib ki, bu məsələ ilə bağlı da irəliləyiş əldə edilib: “Hər iki lider bu haqda təlimat veriblər. Ortada ancaq texniki məsələlər var. Məndə olan informasiyaya görə, bu ilin doqquzuncu ayında bu məsələ öz həllini tapacaq”.

Daha sonra səfir jurnalistlərin suallarına cavab verdi.

Ermənistanla Türkiyə arasında ticarət dövriyyəsinin 250 milyon dollar olmasına dair xəbərlərə toxunan böyükelçi dedi ki, Türkiyə ilə Ermənistan arasında rəsmi münasibətlər və rəsmi ticarət mövcud deyil. Onun fikrincə, başqa ölkədən Ermənistana türk malları keçə bilər.

Səfir sentyabrda açılması planlaşdırılan İrəvan-Van istiqamətində təyyarə reysi barəsində deyilənləri də təkzib etdi: “Belə bir şey yoxdur. Məndə bu haqda mətbuatdan oxuyuram. Amma bu gerçək məlumat deyil ”.




Hülusi Kılıc AKP-nin iqtidara gəlməsindən sonra Azərbaycana səfər edən türk rəsmilərinin müxalifət və vətəndaş cəmiyyəti institutları ilə görüşlər keçirməməsi barədə suala maraqlı cavab verib: «Baş nazir Ərdoğanın səfər proqramı qısa olub. Zaman az idi. Gələcək səfərlərdə belə məsələlər həll olunar”.

“Bizim Yol”-un “Cənab Ərdoğanın səfərini tarixi səfər kimi qiymətləndirirsiniz. Amma nə qaz danışıqları, nə viza, nə də iki ölkə arasında qurulan Strateji Əlaqələndirmə Şurası ilə bağlı konkret qərar verilmədi. O, zaman səfəri tarixi adlandırmaq nə dərəcədə məntiqlidir?» sualına səfir belə cavab verdi: «İki ölkə münasibətləri haqqında pozitiv düşünmək lazımdır. Mən bura 2007-ci ildə səfir olaraq gəldim. Azərbaycanla bağlı mənim bir neqativ fikrimi duydunuzmu? Baş nazir Ərdoğan deyir ki, Qarabağ problemi bizim kəndi problemimizdir. Hər şeyə bu konteksdən yanaşmaq lazımdır. Bu tarixi səfərdir. Səfər zamanı terrorla mücadilə, təhlükəsizlik mövzuları ilə bağlı da müzakirələr olub. Terrorun dili, milləti olmur”.

“Bizim Yol”-un “səfər zamanı Qəbələ RLS-lə bağlı müzakirələr oldumu sualına H.Kılıc konkret cavab verdi: «Qəbələ RSL bizim üçün maraqlı deyil və bu məsələ müzakirə edilməyib».

“Turan”-ın PKK terror təşkilatının Azərbaycana uzantıları varmı sualına isə səfir cavab verməkdən imtina etdi: “Mən bu suala cavab vermək istəmirəm. Bu təhlükəsizlik orqanlarının məşğul olacağı sahədir”.

***Nemət HÜSEYNLİ***

# SƏFA MİRZƏYEV PENSİYAYA ÇIXDI

## *ANTİ-PKK ƏMƏLİYYATI MİLLİ MƏCLİSDƏN BAŞLAYIR?*



PİA.AZ-a daxil olan məlumatlara əsasən artıq hakimiyyət daxilində anti-PKK əməliyyatlarına start verilib. Qeyd edək ki, Türkiyənin baş naziri Ərdoğanın Bakıya səfərindən sonra Azərbaycan prezidenti İlham Əliyev PKK-nı terror təşkilatı kimi tanıdığını və dövlət səviyyəsində bu təşkilata qarşı mübarizə aparıldığını bəyan edib.

Maraqlıdır ki, bu açıqlamanı şərh edən ekspertlər hesab edirdilər ki, indiyədək Milli Məclisdə dəfələrlə deputatlar tərəfindən təkliflər edilməsinə baxmayaraq bu məsələ gündəliyə salınmayıb və parlament PKK-nı terror təşkilatı kimi tanımayıb. İlham Əliyevin məlum açıqlamasından sonra bu məsələnin yenidən gündəmə gətirməsi, həmçinin də bu məsələ ilə bağlı olaraq konkret addımlar atılacağı barədə qəzetimizə məlumatlar daxil olmuşdu.

Məlumat verərək bildirmişdik ki, artıq hakimiyyət daxilində terror örgütü ilə əlaqədə olan bir təşkilatın demək olar ki, Azərbaycandakı əsas yandaşlarına qarşı mübarizə başlayacaq. Hətta hakimiyyət içindəki mənbənin yaxın zamanlarda bəzi məmurların həbs edilməsi barədə də danışmışdı.

Redaksiyamıza danışan mənbə bildirdi ki, artıq konkret olaraq bu məsələ həllini tapıb. Dövlət başçısının göstərişi ilə bəzi şəxslərə tövsiyyə olunub ki, çox sakitliklə tutduqları vəzifədən istefa versinlər. Maraqlıdır ki, ötən saylarımızda onu da əlavə etmişdik ki, bu məsələ ilə bağlı olaraq bir sıra dövlət təşkilatlarında etiraz edənlər də tapılıb. Bundan başqa Türkiyə xüsusi xidmət orqanlarının Azərbaycana təqdim etdikləri məsələ ilə bağlı olaraq bir sıra orqanlara da konkret olaraq siyahılar göndərilib.

Maraqlıdır ki, həmin siyahıda 2005-ci il çağırışında ölkəmizin parlamentində 28 millət vəkilinin və bir neçə yüksək vəzifəli şəxsin Milli Məclisin aparatında yüksək vəzifə tutmaları barədə olub.

Aldığımız məlumatda bildirilirdi ki, Milli Məclisin apparat rəhbəri Səfa Mirzəyev gözlənilmədən işdən istefa ərizəsi yazaraq çıxıb. Bundan başqa S.Mirzəyevin yaxın adamları da aparatdakı işlərindən imtina etməli olublar. Bu barədə məlumat verən mənbə bildirir ki, Səfa Mirzəyevin istefa verməsiylə bağlı olaraq bir sıra məqamlara da aydınlıq gətirilib. Məlumat verən mənbə bildirir ki, ərizəsində aparat rəhbəri guya ərizəsində yaş həddinin keçdiyini və işləmək üçün fiziki gücünün tükəndiyini göstərib. Maraqlıdır ki, bu məsələ ilə bağlı olaraq bizə məlumat verən mənbə iddia edir ki, Səfa Mirzəyevin istefa verməsinə səbəb onun Prezident Adminstrasiyasından gələn göstəriş əsasında olub.

Bu barədə məlumat verən mənbə iddia edir ki, artıq Milli Məclisdə təmizləmə işlərinə start verilib. İnformasiya qaynağımız deyir ki, bir qədər əvvəl parlamentdə spiker Oqtay Əsədovun köməkçisi vəzifəsindən atılan Nizami İsgəndərov əslində Səfa Mirzəyevlə münaqişədə olduğuna görə, işini itirməli olub. «Nizami müəllim əsl türk millətçisi olaraq, parlamentdə deputat olduğu zamanlarda da mövqeyini ifadə edib. Onun mövqeyi, mili mənəvi dəyərlərlə bağlı çıxışları hər bir parlamentarinin yadındadır. O təkrar olaraq deputat seçilmədikdən sonra da Oqtay müəllimin yanında işləyirdi. Bu post kifayət qədər əhəmiyyətli post idi. Məhz Nizami İsgəndərovun prinsipiallığı və milli dəyərlərə qarşı olan qanunların spikerə təqdim edilməsinə qarşı çıxışlar edib. Onun mövqeyi hər zaman mili olub. Buna görə də Nizami müəllimi parlament aparatındakı qruplaşma qısa bir zamanda sıradan çıxardı» deyə həmsöhbətimiz olan mənbə bildirdi.

Xatırladaq ki, Nizami İsgəndərovun oğlu da bir müddət əvvəl Milli Məclisdə huquq siyasəti komitəsində bas məsləhətci kimi işə düzəlibmiş. Lakin mənbəmiz məlumat verərək bildirir ki, atasının rəqibləri onu da sıradan çıxararaq işdən çıxmaq haqqında ərizə yazmaq həddinə çatdırıblar.

Maraqlıdır ki, Səfa Mirzəyevlə yanaşı dərhal istefa ərizəsi yazanlar arasında aparatda çalışan bir neçə yüksək vəzifəli şəxslər də var. Mənbəmizin iddia etdiyi kimi Səfa Mirzəyevin istefaya göndərilməsi hakimiyyət daxilində anti-PKK əməliyyatlarının başlanması kimi niyə dəyərləndirilsin? Məlumat verən şəxs bildirir ki, bir zamanlar PKK lideri Abdullah Öcalan Türkiyədə həbs edilən zaman məhkəmədə verdiyi fiaədələrində demişdi ki, onun Azərbaycanda yüksək vəzifə adamları var. Öcalan hətta ad da çəkərək bəyan etmişdi ki, bu Səfo Mirzoyedir. Maraqlıdır ki, bu məsələ ilə bağlı sabiq millət vəkillərindən olan Hacıbaba Əzimov konkret faktlarla da çıxış etmişdi.

Bütün bu yazılanlarla bağlı qarşı tərəfi də dinləməyə hazırıq.

***pia.az***

# "Azərbaycanın düşməni Gürcüstanın da düşmənidir"

## *Mixail Saakaşvili: "Biz eyni fikirləri paylaşırıq və güclü əlaqələrə malikik"*



Gürcüstan və Azərbaycan uzun illərdir dost ölkədir və bu dostluq tarix boyunca ciddi sınaqlardan keçib. Bunu Gürcüstanın prezidenti Mixail Saakaşvili "The Business Year" iqtisadi jurnalının Azərbaycana həsr olunan xüsusi buraxılışına müsahibəsində bildirib: "Gürcüstanla Azərbaycan regionda coğrafi vəziyyəti və tarixi bağlılığı nəzərə alaraq gərək bir-birinə dayaq ola. Biz eyni fikirləri paylaşırıq və güclü əlaqələrə malikik. Əminəm ki, birliyimiz, yaxşı münasibətlərimiz və əldə edilən ümumi nailiyyətlərimiz sayəsində bizim ölkələrimiz daha yaxşı gələcək yarada bilər. Hər iki ölkənin həll edilməmiş münaqişlərlə bağlı ciddi problemləri var, Azərbaycan və Gürcüstanın hər bir düşməni hər iki dövlətin düşmənidir. Bizim gücümüz birlikdədir, bu nəinki sözlərdir, bu, reallıqdır". Regionda birgə layihələrin uğurla həyata keçdiyinə toxunan Mixail Saakaşvili Bakı-Tiflis-Qars dəmiryol xəttinin tikintisini xüsusi ilə vurğulayıb. Onun sözlərinə görə, bu layihə regionda geosiyasi dəyişikliyin olmasına sübutdur: "Tamamilə yeni strateji əlaqə nəinki Gürcüstan, Azərbaycan və Türkiyə, eləcə də Mərkəzi Asiya, Çin və Avropa arasında da yaranır. Əslində isə "İpək yolu"nun müasir variantı yaradılır. Bu layihə şübhəsiz, bizim ölkələrin uğurlu uzunmüddətli inkişafına təminat verir. Bizim münasibətlərimiz adi əlaqə deyil, bu, daha artıq bir şeydir. Azərbaycan və Gürcütan uzun illər ərzində dost ölkələrdir. Azərbaycan-Gürcüstan dostluğunun böyük tarixə malik olduğunu deyən Gürcüstan dövlətinin lideri 2008-ci ilin yanvar ayında indiyə kimi məlum olmayan məsələlərə görə Gürcüstan işıqsız və qazsız qalanda həmin soyuq qışda gürcü xalqına Azərbaycanın yardım etdiyini xatırladıb: "Baxmayaraq ki, həmin dövrdə Azərbaycan öz əhalisinə verdiyi qazı azaltmalı olmuşdu. Gürcüstan Azərbaycan xaqlının bu yardımını heç vaxt unutmayacaq. Biz bu yardımı heç vaxt unutmayacağıq, çünki Azərbaycan gürcülərin ən çətin vaxtında onlara kömək edib. Bu, nəinki strateji tərəfdaşlığın nəticəsidir, bu həm də bizim qardaşlığımızın nişanəsidir. Bizim ölkələrimiz arasında heç bir problem yoxdur".

***Azad***

# "Beynəlxalq ictimaiyyət Xocalıdakı hadisələri holokost adlandırmır"

## *Mixal Lebenda: "Lakin bu həmin faktın ifadəsini dəyişdirmir"*

*Polşa-Azərbaycan münasibətləri həmişə müsbət xarakterizə olunub. Polşa prezidentinin bu yaxınlarda Azərbaycana səfəri əlaqələrin daha da inkişaf edəcəyini deməyə əsas verir.*

*Polşanın Azərbaycandakı səfiri Mixal Lebenda ölkələrinin dövlət başçısının Azərbaycana səfəröncəsi olduğu kimi, səfərdən sonra da ilk müsahibəsini "Həftə içi"nə verdi və iki ölkə arasındakı münasibətlərin daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

**- Polşa və Azərbaycan arasındakı əlaqələri necə dəyərləndirirsiniz?**

- Polşa və Azərbaycanı həmişə yaxın və dost əlaqələri birləşdirib. Oxşar talelər, əsasən də iyirminci yüzillikdə, bizə bir-birimizi daha yaxşı anlamağa imkan verib. Emosional səviyyədə bizim xalqlarımız bir-birinə çox yaxındılar.

İkitərəfli münasibətlərimizə pis təsir edə biləcək tarixi hadisələr olmayıb. Eləcə də bizim ölkələrimiz siyasi və iqtisadi arenada tamamlayıcı maraqlara malikdirlər - Polşa yaxın qonşu ölkələrini Avropa orbitasına cəlb edən Şərq Tərəfdaşlığı Proqramının tərəqqisində maraqlıdır, Azərbaycan isə öz növbəsində Avropa Birliyi ilə əlaqələrin inkişafını prioritet məqsəd kimi qəbul edir. Polşa Avropanın energetik xammalı ilə təchiz edilmə mənbələrinin difersifikasiyasında maraqlıdır, Azərbaycan da öz ixracat istiqamətlərinin difersifikasiyası naminə aktiv fəaliyyət aparır. Buna görə də həmçinin praqmatik nöqteyi-nəzərindən bizim əlaqələrimiz yaxşıdır və yaxşı da olacaq. İctimai rəy üçün bunun ən gözəl görümlü işarəsi yüksək səviyyəli səfərlərdi - məsələn, son dəfə Polşa prezidentinin Bakı səfərini göstərmək olar.

**- Azərbaycanın əraziləri Ermənistan tərəfindən işğal edilib. BMT bununla bağlı qətnamələr qəbul edib. Lakin Ermənistan beynəlxalq hüquq prinsiplərinə əməl etmir...**

- Bildiyiniz kimi, Polşa və yaxud Avropa Birliyinin digər ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu da Bakıda səfər etmiş Avropa Komissiyasının sədri, Barosso tərəfindən Bakı Dövlət Universitetində dəqiq ifadə edilib. Bizim fikrimizcə, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı məsələsini beynəlxalq hüquq normalarına əsaslanaraq həll etmək lazımdır və buna görə də Dağlıq Qarabağ münaqişəsinin həlli imkanı Azərbaycan və Ermənistan tərəfindən qəbul edilmiş formatda və ATƏT-in Minsk Qrupunun iştirakı və mühüm rolu ilə davam edən sülh prosesini qoruyub saxlamaqdadır. Polşa konsensusun tapılması və mübahisənin həllinin ancaq danışıqlar yolu ilə mümkün olması qənaətindədir.

**- Xocalı soyqırımı zamanı yüzlərlə azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib. Lakin beynəlxalq cəmiyyət bu məsələyə qarşı çox laqeyddir. Ermənilər isə türklər tərəfindən törədilmiş uydurma erməni soyqırımı haqqında məlumat yayırlar. Bu haqda nə deyə bilərsiniz?**

- Xocalının sivil əhalisinin dramı və 1915-ci ilin kədərli hadisələrinin bir-biri ilə bilavasitə bağlılığı yoxdur. Lakin onları günahsız insanların payına düşmüş ümidsizlik və faciə birləşdirir. Bu cür hər faciə soyqırımı olub-olmamağından asılı olmayaraq, əzablı və sarsıdıcı olur. Beynəlxalq ictimaiyyət Xocalıdakı hadisələri holokost adlandırmır, lakin bu həmin faktın ifadəsini dəyişdirmir.

**- Varşavada Şərq Tərəfdaşlığının Zirvə toplantısı keçiriləcək. Polşa bu tədbirə necə hazırlaşır? Bunun əsas mahiyyəti nədədir?**

- Şərq Tərəfdaşlığının Zirvə toplantısı Varşavada cari ilin 29-30 sentyabr tarixlərində keçiriləcək və bu sədrliyimizin planlaşdırdığı ən böyük tədbiri olacaq. Əlavə edim ki, bu tədbiri biz sona çatan Macarıstanın sədrliyi ilə ortaq realizə edəcəyik. Polşa üçün bu tədbir yalnız nüfuzlu məna daşımır, hərçənd ki, İsveçlə birgə tərəfdaşlığın konsepsiyasının müəllifiyik. 2009-cu ildə Praqada keçirilmiş ŞT-nin I-ci sammitindən bəyannamənin əsaslarının yerinə yetirilməsi bizim üçün vacibdir, eləcə də Varşavadakı görüşünün siyasi bir mənalı müraciətnamənin yaradılması, misal üçün qonşu şərq ölkələrinin Avropadaki yeri, yəni üzvlük perspektivləri haqqında olan AB müqaviləsinin 49-cu maddəsi bizim ambisiyamızdır. Bizim fikrimizcə, regionun ölkələri üçün aydın siyasi perspektivin istiqamətinin təyin edilməsi islahatlar üçün faydalı stimul olardı. Əlbəttə üzv ölkələrinin yanaşmasında olan fərqləri biz görürük və bilirik ki, hamısı belə uzağa gedən ambisiyaları irəli sürmür. Buna görə də tərəfdaşlıq elastik məhsul olmalıdır ki, hər bir ölkə burada özü üçün nə isə tapa bilsin. Eləcə də biz Şərq Tərəfdaşlığında Avropa dəyərləri ruhunda ağır iş, ölkənin islahatı, həmçinin AB ilə daha dərin əməkdaşlıq, AB-nin öz təklifinin genişləndirilməsinə avtomatik öhdəçiliyi yaradan mexanizmi tətbiq etmək istəyirik. Yəni Şərq Tərəfdaşlığının təklif edilən yeni proqramını daha yaxşı ifadə edən "daha çoxa görə daha çox, daha aza görə daha az" şüarında deyildiyi kimi. Əlavə edim ki, ilk dəfə olaraq sammiti müşahidə edən tədbir kimi Biznes Forum və həmçinin vətəndaş cəmiyyətinə həsr edilmiş konfrans keçiriləcək. İkinci yarımillikdə Şərq Tərəfdaşlığının bir sıra nazir görüşlərinin və sektor konfransları təşkil etməyi planlaşdırırıq. Görüşlər Şərq Tərəfdaşlığının əməkdaşlığının əsas sahələrinə aid olacaq və Avropanın dəyərlərini təbliğ edəcək. Əlbəttə ki, sammitin uğurunun ölçüləri Şərq Tərəfdaşlığında iştirak edən və dəvət edilmiş dövlətlərin başçılarının və hakimiyyətlərinin geniş mövcudluğundan asılı olacaq. Bu bizim üçün çox vacibdir və biz bunun üçün çalışacağıq. Bu sammitin özü ilə maraqlanmanın səviyyəsinin ən yaxşı təyinedicisidir və onun tərəfindən qəbul edilmiş təyinidir.

**- Avropa Birliyi və Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi müzakirə olunur. Bu addımın müsbət tərəfləri hansılardır?**

- Viza rejiminin sadələşdirilməsi haqqında müqavilələr AB tərəfindən öz xarici tərəfdaşlarına, eləcə də Şərq Tərəfdaşlığında qruplaşmış dövlətlərə yönəlmiş geniş təkliflərdən biridir. Dəqiq olmaq üçün əlavə etməliyəm ki, viza rejiminin sadələşdirilməsi Şengen zonasına daxil olan dövlətlərə girişi sadələşdirir, bu zona isə Avropa Birliyi ilə üst-üstə gəlmir. Bu cür müqavilənin əhəmiyyəti həmçinin tərəflərin güzəştli viza ödənişlərinin tətbiqi öhdəliyindən də ibarətdir. Şəxsi vizalar hal-hazırda 35 avrodur. Müqavilə həmçinin ödənişsiz vizaları ala biləcək şəxslərin qrupunu artırır. Bu cür vizalar rəsmi səfərlər zamanı (misal üçün idmançıların idman yarışlarına, tələbələrin rəsmi mübadilə proqramlarına, konfranslar, mədəniyyət mübadiləsi və yaxud humanitar yardımı sahəsində) verilir. Bundan əlavə, səfərin məqsədindən asılı olmayaraq, ödənişsiz vizaları 12 yaşınadək uşaqlar və təqaüdçülər alır. Bu müqavilələr bir-birindən fərqli ola bilərlər, bəzi qərarlar isə qarşılıqlılıq xüsusiyyətinə malik olmaya bilərlər. Belə qərarlar Ukrayna və Gürcüstanla imzalanmış müqavilələr ehtiva edirlər. Bunların əsasında şengen ölkələrinin vətəndaşları bu dövlətlərə vizasız səfər edə bilir, lakin o dövlətlərin vətəndaşları üçün şengen vizası tələb edilir. Belə müqavilələrin məqsəd və əhəmiyyətini təyin etmək çətin deyil. Daha ucuz, yaxud tamamilə ödənişsiz viza və daha asan əlçatan viza avtomatik olaraq insan, mədəniyyət, idman və yaxud təhsil mübadiləsində öz təsirini göstərir. Burada biznes üçün daha çox şans, turizmin inkişafı üçün impuls yaranır. Son nəticədə qarşılıqlı tanışlıq və neqativ stereotiplərdən azad olmaq üçün daha çox fürsətlər deməkdir. AB-nin şərq qonşuları arasında bu cür müqavilələrə Ukrayna, Gürcüstan, Rusiya və Moldova malikdirlər. Hesab edirik ki, AB-nin şurasında sədrliyimiz, eləcə də Azərbaycanla viza rejiminin sadələşdirilməsinə dair müzakirələr aparmaq üçün mandat qəbul edəcək. Viza rejiminin



sadələşdirilməsinə dair müqavilələr haqqında danışarkən iki əlavə və çox vacib elementi xatırlamaq lazımdır. Bu cür müqaviləyə həmişə readmissiya haqqında müqavilə müşahidə edir. Müqavilə bağlayan tərəflər üçün o başqa tərəfdaşın ərazisindən onların ərazisinə gəlib çıxmış istənilməyən və qanunlara tabe olmayan insanları öz ərazilərindən göndərməyə imkan verir. Və məhz bu element hansısa bir tərəfin readmissiya haqqında müqavilənin qəbul etməməsi viza rejiminin sadələşdirilməsində səbəb olur. Başqa tərəfdən, viza rejiminin sadələşdirilməsi haqqında müqavilə, bir sıra əlavə şərtlərin yerinə yetirilməsi zamanı, bunlardan - sərhədlərin qorunması, gömrük və sərhəd xidmətləri arasında məlumat mübadiləsinin müvafiq səviyyəsi - bir neçə müddət sonra viza rejiminin tam ləğvi müqaviləsi ilə əvəz edilə bilər. Bu statusa başqaları ilə birlikdə balkan ölkələri malikdir, AB-nin şərq qonşuları arasında isə Rusiya və Ukrayna daha irəliləşdirilmiş müzakirələr aparır.

**- "Odessa-Brodı" boru kəmərinin Qdansk şəhərinə kimi uzadılması məsələsində irəliləyiş varmı?**

- Avrasiya Neft Nəqletmə Dəhlizinin Layihəsinin (ANND) vacib elementi olan "Odessa-Brodı-Plotsk" boru kəməri davamlı olaraq Sarmatiya konsorsiumu formatında həyata keçirilir. Onun payçıları Polşa, Ukrayna, Litva, Azərbaycan və Gürcüstanın energetik şirkətləridir. 2010-cu il noyabrın 24-də Bakıda keçirilmiş, İqtisadi Əməkdaşlığı üzrə Polyak-Azərbaycan Komissiyasının IV iclası ərzində, Polşa Respublikasının baş naziri və iqtisadiyyat naziri Valdemar Pavlak effektivliyinin artmasına, həmçinin Sarmatiyanın fəaliyyətinin yeni şəraitə uyğunlaşdırılmasına nəzər yetirib. Nazir Pavlak Şərq Tərəfdaşlığı təşəbbüsünün "Energetik təhlükəsizliyi" III tematik platforması çərçivəsində təklif etdiyi imkanları da qeyd edib. Azərbaycandan Ukraynaya neftinin nəqli, həmçinin xammalın Belarusiyaya tranzitinə dair bu yaxınlardakı razılaşmalar, "Odessa-Brodı" boru kəmərinin zahiri tərəfinin istifadəsinin kommersiya əsaslığının və həmçinin ANND layihəsinin gələcəkdə inkişafı üçün ilkin şəraitin təsdiqidir. Əlavə etmək lazımdır ki, prezident B.Komorovskinin Bakıya səfəri zamanı bu məsələ Polşanın və Azərbaycan prezidentlərinin danışıqlarının mövzularından biri olub.

**- Mərhum Lex Kaçınskinin hakimiyyəti zamanı gündəlikdə Polşanın GUAM-a daxil olması məsələsi müzakirə olunurdu. Hazırda bu məsələ hansı mərhələdədir?**

- Polşa GUAM təşkilatının çərçivəsində bütün növ aktivliyin tərəfdarıdır, lakin heç zaman bu təşkilatda öz üzvlüyü məsələsini müzakirə etməyib. GUAM -ın üzv ölkələri arasında olan dialoqu da dəstəkləyirik, həmçinin ölkəmizin sistem transformasiyasının bir hissəsi olan və bizim əməkdaşlar üçün yararlı ola biləcək siyasi və iqtisadi təcrübənin mübadiləsinə xidmət edən Polşa-GUAM platforması çərçivəsində münasibətlərin intensivləşdirilməsi üçün çalışırıq.

**- Polşada Məhəmməd Əmin Rəsulzadə haqqında bir çox material çap olunur. Azərbaycan tədqiqatçıları üçün arxiv açıqdırmı?**

- Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyəti Polşada yalnız Azərbaycan Demokratik Respublikasını yaratması üçün deyil, həmçinin onun II Polşa Respublikası ilə olan əlaqələrinə görə də tanınır və qiymətləndirilir. Yada salmaq lazımdır ki, sovetlərdən qaçan Rəsulzadə məhz Polşada sığınacaq tapıb. Burada o Promitey cərəyanının çərçivəsində aktiv fəaliyyət göstərib. Polşa Respublikasının Bakıdakı səfirliyi öz tədqiqat layihələrindən birini Rəsulzadənin şəxsiyyətinə həsr edib və nəticədə arxiv sorğusu əsasında "Məmməd Əmin Rəsulzadənin Azərbaycan-Polşa əlaqələrinin inkişafında rolu" nəşr edilib. Polyak arxivi öz materiallarından yararlanmaq imkanını verir, həmçinin Varşava və Bakı arasında imzalanmış ikitərəfli razılaşmaya əsasən, tədqiqat fəaliyyətinə dəstək etməyə hazırdır.

**- Polyak və Azərbaycan jurnalistlərinin qarşılıqlı səfərləri olurmu? Səfirlik belə səfərlərin təşkilini planlaşdırırmı?**

- Polşaya jurnalistlərin təhsil səfərləri mətbuat ilə əməkdaşlıq, Azərbaycanda Polşanın həqiqi və pozitiv imicinin yaranması üçün əsas elementdir. Hər il Azərbaycan mətbuatının bir neçə nümayəndəsi Polşaya səfər edir. Onların səfər haqqında raportları mətbuatda nəşr edilir və bizim ölkələrimizi birləşdirən hərtərəfli çox gözəl əlaqələri sübut edir...

**- Siz Azərbaycan dilini bilirsiniz. Bu dili səfir olduqdan sonra, yoxsa ondan əvvəl öyrənmisiniz? Azərbaycan haqqında fikirləriniz maraqlıdır, necə ölkədir? Bura gəlməmişdən əvvəl bizim ölkə haqqında məlumatınız var idimi? Bura gəldikdən sonra ölkəmiz barəsində rəyiniz dəyişdimi?**

- Azərbaycan dilini hələ Polşada olanda öyrənməyə başlamışam. Bakıya gəlməmişdən əvvəl Şərqi Departamentin Cənubi Qafqaz və Orta Asiya üzrə direktor müavini vəzifəsində çalışırdım. Bakı nümayəndəliyi bilavasitə mənim səlahiyyətimə daxil idi, buna görə də Azərbaycanda səfir vəzifəsinə təyin edilməmişdən öncə Azərbaycan məsələləri ilə çox yaxşı tanış idim. Xarici xidmət işçisi vəzifəsində daimi təhsil bacarığı tələb olunur, buna görə də təhsilimi davam etdirirəm, öz biliklərimi təkmilləşdirirəm. Burada mənim üçün çox maraqlı olan yalnız dillər deyil, həmçinin mədəniyyət və regionun ənənələri ilə də tanışlığı nəzərdə tuturam. Azərbaycan çox maraqlı ölkədir. Onun haqqında biliyə yalnız kitablar və kütləvi informasiya vasitələrindən deyil, insanlarla söhbətlərdən və səfərlərimdən (Gəncəyə, Lənkərana, Şəkiyə) öyrənirəm. Çünki məhz bunlar daha yaxşı təhsil verir və uzun müddət xatirədə qalır.

***Əli Zülfüqaroğlu***

# "Avropa yenidən səlib yürüşlərinə sürüklənir"

## Mayis Güləliyev: "ABŞ və onun "beyin mərkəzləri" yüz ildən çoxdur ki, dünyanı nehrə kimi çalxalayır"

***Norveçdə baş verən qanlı olay bütün dünyanın diqqətini çəkdi. Ortaya çıxan çoxlu sayda sual isə hələ də cavabsız qalmaqdadır. Bu arada 93 nəfərin həyatına son qoyan qatil Andres Behrinqin manifesti yayıldı. Müsahibim tanınmış politoloq, Azərbaycan Yaşıllar Partiyasının həmsədri Mayis Güləliyevlə yaranmış suallara cavab axtardıq.***

**- Son bir neçə gündə bütün dünya mətbuatı Norveçdə baş verən hadisəni müzakirə edir. Sizin bu hadisəyə münasibətiniz?**

- Hər şeydən əvvəl bu dəhşətli hadisədən təəssüfləndiyimi bildirirəm və həlak olmuş insanların yaxınlarına başsağlığı verirəm. Bir neçə gün öncə Facebook-da Norveçin Azərbaycandakı keçmiş səfiri Steynar Gilin Azərbaycan vətəndaşları ilə yazışmasına rast gəldim. Əlbəttə, yazışmalarda hamı Steynar Gilə başsağlığı verərək bu hadisəni kəskin tənqid edib. Mən inanmıram ki, qəlbində insani hisslər olan kimsə bu hadisədən təəssüflənməsin. Axı çoxlu sayda günahsız insan qətlə yetirilib. Lakin nəzərə almaq lazımdır ki, belə hadisələrin ciddi araşdırılmaması və yalnız başsağlığı verməklə "işi bitirmək" gələcəkdə belə hadisələrin yenidən vüsət tapmasına şərait yaradır. Oxşar hadisələr daha çox ABŞ-da baş verir. Belə hadisələrin səbəbləri nə dərəcədə cəmiyyətə açıqlanır? İntihar hallarının artması, insanların bir-birinə qarşı aqressivliyinin güclənməsi, günahsız insanlara qarşı qırğınların törədilməsi, pessimistlik, gələcəyə inamsızlıq və sair halların gənclər arasında yayılması hər bir cəmiyyəti düşündürməlidir. Nəzərə almaq lazımdır ki, XXI əsr təkcə texnologiyaların sürətlə inkişaf etdiyi əsr deyil, həm də "şok" əsridir. Bu "şok" həm fərdlərin, həm də cəmiyyətin psixi müvazinətin itirilməsi ilə bağlıdır. Cəmiyyətin əxlaqi və mənəvi dayanıqlılığı üçün vacib olan dini dəyərlərin zəiflədiyi cəmiyyətlərdə hadisələrin sürətli inkişafı fərdlərin psixi müvazinətini pozur. Xüsusilə, individualizm fəlsəfəsinin geniş yayıldığı ABŞ və Avropa cəmiyyətləri getdikcə belə təhlükələrlə üz-üzə dayanmalı olur. Qeyd edim ki, Qərb cəmiyyətlərini gözləyən ciddi sınaqlar haqqında E.Toflerin "Gələcəyin şoku" əsəri və ya Patrik Byukekenin "Qərbin ölümü" əsərləri həyəcan siqnalı verirdi.

**- Bu terrorla 93 nəfərin həyatına son qoyan Anders Behrinqin 1518 səhifəlik manifestində çox maraqlı məqamlar var. Manifestində onun islama, türklərə və Türkiyəyə nifrəti anlaşılan deyil...**

- Qeyd edim ki, insan tələfatı ilə müşayiət edilən hər hadisəyə "terror" deyilmir. Terror dini, siyasi, ideoloji motivlərlə dinc insanların məhv edilməsi və ya onlara qarşı silahlı zor tətbiq edilməsidir. Bu dəhşətli və qeyri-insani qətliam terror yox, ciddi psixi müvazinətini itirmiş insanın dinc insanlara qarşı cinayətidir. Heç şübhə yoxdur ki, onun psixi müvazinətinin itirilməsindən sui-istifadə edilib. Elə XXI əsrin "şok effekti" də mahiyyətcə bundan ibarətdir. Yəni cəmiyyətləri elə hala gətirirlər ki, onun ayrı-ayrı fərdlərini idarə edərək istənilən fəaliyyətə, o cümlədən "terrora", narkomanlığa, fahişəliyə və sair sövq etmək mümkün olsun. Heç şübhə yoxdur ki, elə bu insanlar və ya qruplar bu hadisədən yararlanmaq istəyənlərdir. Belə ki, bu şəxsin İslama və Türkiyəyə nifrəti olması gündəmə gəlib. Psixi müvazinətini itirmiş cəmiyyətlər üçün "cəlbedici", normal düşüncə üçün qəbuledilməz məntiq! Birincisi, müəyyən qədər intellektual çəkiyə malik olan 1518 səhifəlik yazını yazan şəxs yalnız psixi müvazinətini itirdiyi halda kimisə öldürməyə qərar verə bilər. İkincisi, bu yazının mahiyyəti ilə öldürülənlərin heç bir əlaqəsi yoxdur. Onlar nə islamçılar deyil, nə də türk. Yenə də qətliamın motivi bəlli deyil. Yəni nə dini, nə milli, nə də siyasi motiv hiss edilmir. Bu hadisə qərb cəmiyyətinin XXI əsrdə üzləşdiyi "şokun" psixi gərginliyinə dözə bilməyən xəstə və silahlı şəxsin "özünü ifadəsidir". Əlbəttə qərb cəmiyyətində minlərlə insanın psixi müvazinətini pozmağa nail olan "şokçular" bu hadisədən də yararlanmağa cəhd göstərəcəklər. Hətta bu şəxsin radikal islamçılarla əlaqəsinin olduğunu da uydura bilərlər. Lakin bütün bunlar qərb cəmiyyətlərinin problemini həll edə bilməz.

**- Anders Behrinq Türkiyənin Avropa Birliyinə daxil olacağı təqdirdə, Avropanın islamlaşacağını və bunun qarşısını almaq üçün yeni bir xaçlı savaşın başlanılmasına ehtiyac olacağına inanırdı...**

- Xeyr! Belə deyil. Onun belə inamının törətdiyi vəhşiliklə məntiqi əlaqəsi yoxdur. Belə ki, Avropanı qorumaq istəyən şəxs dinc insanlara qarşı silahlı hücum etməzdi. Əgər o, doğrudan da Avropanın xilasını istəyirdisə və bu xilasın dini dəyərlərlə bağlı olduğunu dərk edirdisə, özü dini prinsipləri əsas götürməli idi, yəni kimisə öldürməməli idi. Bu da "şokçuların" uydurmasıdır. XXI əsrin ciddi "şokuna" düçar olan Avropa yenidən digər "şoka"- "səlib yürüşlərinə sürüklənir". Bu necə də S. Hantinqtonun "Sivilizasiyaların toqquşması" uydurmasına bənzəyir. Kimdir bu sivilizasiyaları toqquşduran? ABŞ və onun "beyin mərkəzləri" yüz ildən çoxdur ki, dünyanı nehrə kimi çalxalayır. Gah "elmi proqnozlar" kimi, gah da "terrora qarşı müharibə" kimi xristian və İslam mədəniyyətlərini üz-üzə qoymağa cəhd göstərir. Görünür, bu məqsədlə Anders Behrinq variantından da istifadə ediləcək.

**- Türkiyənin islamlaşdığını söyləyən terrorist onun NATO-dan çıxarılmasının tərəfdarı olduğunu da qeyd edib. Buna münasibətiniz?**

- Onun belə təkliflə nəyə nail olmaq istədiyini deyə bilmərəm. Lakin bu iddianın da qətliama heç bir dəxli yoxdur. Məgər belə qətliamla o NATO-ya təzyiq etmək istəyib? Yoxsa avropalıların diqqətini bu problemə yönəltmək istəyirdi? Min səhifəlik cəfəngiyat yazmaq əvəzinə, NATO-nun nizamnaməsini oxusaydı dərk edərdi ki, Türkiyəyə NATO lazım deyil. Əksinə, NATO-ya Türkiyə daha çox lazımdır. NATO çoxdandır ki, müdafiə alyansı deyil, hücum alyansıdır. NATO praktiki olaraq ABŞ-ın maraqlarına xidmət edən "beynəlxalq jandarm" vəzifəsini yerinə yetirir. Doğrudan da Türkiyə cəmiyyəti getdikcə İslam dəyərlərinə daha çox önəm verir. Xüsusilə, son on ildə Türkiyənin həm iqtisadi, həm də siyasi sabitliyi dini dəyərlərə söykənən dayanıqlı cəmiyyətin nə dərəcədə mühüm olduğunu sübut etdi. Heç şübhəsiz ki, Türkiyənin islamlaşması və getdikcə sabit inkişaf yoluna dönməsi, İranın İslam dəyərlərinə söykənən yeni idarəetmə və inkişaf modeli yaradaraq sürətlə inkişaf etməsi XXI əsrin "şokunu" yaşayan Avropaya ciddi siqnaldır. Lakin bu siqnal qarşıdurmalar və inkar üzərində qurulmamalıdır. Əksinə əməkdaşlıq və tolerantlıq əsasında formalaşmalıdır.



- Terroristin manifestində daha çox diqqətçəkən məqamlardan biri də türklərin 1.5 milyon ermənini qətlə yetirərək soyqırımı törətdiyi iddialarının irəli sürülməsidir.

- Heç şübhəsiz ki, "erməni soyqırımı" məsələsi "domokl qılıncı" kimi Türkiyənin başı üstündən hələ uzun illər asılı vəziyyətdə qalacaq. Mən inanıram ki, Türkiyə siyasiləri bu problemin əslində "bəhanə" olduğunu dərk edirlər. Yəni Türkiyə üçün əsas problem "müstəqillik problemidir". Belə ki, ilk baxışda "müstəqil" olan Türkiyə Cümhuriyyəti yaranandan indiyədək həm iqtisadi, həm hərbi, həm də siyasi cəhətdən qərb ölkələrindən asılı vəziyyətdədir. Son 10 ildə Türkiyə daha çox müstəqil olmağa cəhd göstərir. Lakin onun hər bir addımı qərbin ciddi müqaviməti ilə rastlaşır. "Erməni soyqırımı" məsələsi də belə müqavimətlərdən biridir. Mən tamamilə əminəm ki, Anders Behrinqin "erməni soyqırımı" ilə bağlı iddiaları da heç bir elmi və ya tarixi araşdırma ilə bağlı deyil.

**- Bu günlərdə dünya mətbuatı digər bir məqamı da diqqətdə saxladı. Türkiyədə erməni əsilli jurnalist Hrant Dinkin qatilinə 23 il həbs cəzası verildi. Buna münasibətiniz?**

- Kimliyindən, hansı millətə aid olmağından asılı olmayaraq, hər kəsin yaşamaq hüququ var. Allahdan başqa heç kəs heç kəsin həyatına son qoya bilməz. İstənilən cinayət cəzasını almalıdır. Əks halda, cəmiyyətin müvazinəti pozular. Bu hadisə ilə bağlı Türkiyə cəmiyyəti düzgün mövqe tutdu. Cəmiyyət terroru pislədi. Kimə tətbiq edilməyindən asılı olmadan terror qeyri-insani fəaliyyətdir və pislənməlidir.

**- Əli türk əsgərinin qanına bulaşmış PKK terrorçularını mağarlarından Türkiyəyə səsləyən, onlara rahat qucaq açan Ərdoğan hakimiyyətinin yürütdüyü daxili siyasət bu qardaş ölkəni hara aparır?**

- Qeyd etdiyim kimi, Türkiyənin tam müstəqil siyasət yeritməsi qərbi həmişə qıcıqlandırır. İstənilən bir cəmiyyətin, o cümlədən Türkiyənin güclü olması onun öz milli və dini dəyərlərinə qayıtmasından keçir. Türkiyə cəmiyyətinin fəxr edə biləcəyi böyük tarixi və özünəməxsusluğu var. Odur ki, Qərbin "şokçuları" hər hansı bir cəmiyyəti idarə etmək üçün onu "özündən" uzaqlaşdırırlar. Türkiyə son 10 ildə öz dəyərlərinə qayıtmaq üçün ən ciddi cəhdlər edir. Türkiyə cəmiyyəti dərk edir ki, qlobal problemlərə, xüsusilə milli təhlükəsizliyə nail olmaq üçün qloballaşmanın mənfi təsirlərindən qorunmaq vacibdir. Bu isə daxili sabitliyin və milli birliyin olmasını vacib edir. Türkiyə region ölkələri ilə, xüsusilə İslam ölkələri ilə yaxın münasibətlər qurmağa cəhd göstərir. Bunlar çox mühüm addımlardır. Bu addımların hər biri qərb tərəfindən ciddi müqavimətlə üzləşir. Türkiyə hakimiyyəti hamıdan daha yaxşı dərk edir ki, PKK Türkiyəyə təzyiq vasitəsidir. Lakin həm də dərk edir ki, PKK-nın mövcud olması cəmiyyətdə hansısa konkret problemlərin olduğundan xəbər verir. Yəni PKK uydurulan problem deyil, lakin sui-istifadə edilən problemdir. Odur ki, PKK ilə bağlı problemi elə həll etmək lazımdır ki, bir daha sui-istifadə hallarına yer qalmasın.

***Ceyhun Nağı***

# Sabunçu Rayon İcra Hakimiyyə

## Görəsən Sabunçu Rayon İcra Hakimiyytinin başçısı bir dəfə də olsa ərazini gəzibmi?





İllərdir bu gözəl sahəyə vətəndaşlar həsrətlə baxır və düşünür: "Görəsən bu yaşıl meşəlik nə vaxt istirahət mərkəzi kimi xalqin ixtiyarına veriləcək". Çox təəssüflər olsun bura "alkaş"oylağı və zibil yığnağı olubdur. Rəhbərlik hara baxır.



Naməlum səbəbdən Bakıxanov qəsəbəsinin sakinlərinin istirahət yeri olan "Heydər Parkı" yayın qızmar vaxtına təmirə dayandı. Nədən?



Həyətlərin zibilliyi bir yana dursun, 20 ildir ki bu həyətlərə asfalt döşənmir, deputat və nazirlərin həyətlərindən başqa?



Görəsən həyətlərin ərazilərini obyektlər üçün satan kimdir? Rəhbərliyin xəbəri varmı?




Nə vaxta qədər dayanacaqlar market və dərzi sexi olaraq qalacaq



Bəs deyilmi səkiləri satmaq?



BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?



BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?



BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?



Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir



Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir



BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?



Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir

# tinin apardığı “ABADLIQ” işləri

## Səkilərdə, həyətlərdə, dayanacaqlarda tikilən ticarət mərkəzlərini zəbt olmuş yolları görübmü?


İllərlə yığılan zibillik nə vaxt yığışdırılacaq


Bu da uşaqlarımızın istirahət “meydançası”


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


Bu da təmirə dayanmış “Heydər Parkı”


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


“Hydər Parkı”ndan Stansiyaya qədər olan köməkçi parkın indiki durumu


BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir


BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?


BŞİ Hakimiyyətinin küçə ticarətinin qadağasına niyə əməl olunmur?


Səki biznesi ucbatindan sakinlər əziyyət çəkir

# "PKK-nı kürd problemi kimi qələmə verirlər"

## *Eldar Namazov: «Çalışıram ki, İctimai Palatanın addımlarına dəstək verim»*

*«Azərbaycan korrupsiyaya görə elə bir səviyyəyə çatıb ki, burada çox sərt cərrahiyyə əməliyyatlarına ehtiyac var»*

*Son günlər Qarabağ münaqişəsinin nizamlanması, Türkiyə-Azərbaycan münasibətləri və PKK problemilə əlaqədar müzakirələr intensivləşib. Həm bu, həm də digər aktual məsələlər ətrafında politoloq Eldar Namazovla söhbətləşmək qərarına gəldik.*

**- Vaxtilə Ərdoğan Azərbaycan hökumətinə PKK ilə bağlı siyahı təqdim etmişdi. Ancaq hakimiyyətdən səs çıxmadı. Lakin bir baş redaktorun mətbuat konfransına reaksiya daha sərt oldu. Sizcə, Türk dövləti olaraq Azərbaycan PKK ilə bağlı mənəvi və siyasi öhdəliklərini yerinə yetirə bilirmi?**

- Bu, çox ciddi məsələdir. Burada bir neçə vacib amilləri, Azərbaycan-Türkiyə strateji münasibətlərini nəzərə almaq lazımdır. Həqiqətən də Yer kürəsində bizə Türkiyədən yaxın dövlət yoxdur. Bir millət, iki dövlət - bu, yalançı şüar deyil. Hakimiyyətlərin apardığı siyasətdən, Bakıda və Ankarada hansı partiyaların hakimiyyətdə olmasından asılı olmayaraq, bu münasibətlərə heç kim xələl gətirə bilməyəcək. Baxmayaraq ki, belə cəhdlər oldu. Səhvənmi, bilərəkdənmi -ikitərəfli münasibətlərə kölgə salmaq cəhdləri olmuşdu. Hansısa müddətdə buna müvəffəq olmuşdular da. Ancaq sonra həm Azərbaycan, həm də Türkiyənin təpkisi nəticəsində belə hallar aradan qaldırıldı. Ona görə təhlükəsizlik məsələlərində Türkiyənin milli maraqlarını həmişə nəzərə almalıyıq. Bu mənada Azərbaycanın Türkiyəyə münasibəti bu prinsipin əsasında formalaşmalıdır.

Məsələnin ikinci tərəfi də var. Azərbaycanın daxilində həmişə bizə doğma olan, bir ailə kimi yaşayan xalqlar olub, onların arasında kürdlər də var. Heç vaxt Azərbaycanda kürdlərlə bağlı problem olmayıb. Biz istəyirik ki, bundan sonra milli azlıqlar rahat yaşasın və hamı Azərbaycan vətəndaşı kimi eyni hüquqa, hörmətə malik olsun. Bu mənada bəzən bu iki məsələni mətbuatda qarışdırırlar. Hər bir PKK problemini kürd problemi kimi qələmə verirlər. Ya da kürd əsilli adamın dediklərini PKK-ya bağlayırlar. Bunları ciddi şəkildə ayırmaq lazımdır. Konkret bir təşkilat var və bu, silahlı yolla Türkiyənin ərazi bütövlüyünə qəsd edir, terror aktları həyata keçirir. Bu təşkilata Azərbaycan dövləti tərəfindən münasibət birmənalı olmalıdır. Bu, açıq ifadə olunmalıdır. Azərbaycanda çoxmillətli cəmiyyət var, hamı bir ailə kimi yaşayır. Hamı bərabər hüquqludur. Bundan sonra da belə davam etməlidir.

**- Azərbaycanda çirkli yolla pul qazanan dövlət məmurlarının ofşor zonalardan istifadə etmələri halı artıb. Sizcə, bu, dünyada baş verən proseslərin nəticəsidir, yoxsa çıxış yoludur?**

- Adətən, Azərbaycan məmurları deyir ki, hər bir ölkədə korrupsiya var. Təbii ki, bu, "gözdən pərdə asmaqdan" başqa bir şey deyil. Azərbaycan vətəndaşı bundan çox əziyyət çəkir. Ölkə iqtisadiyyatına ən böyük təhlükə böyük korrupsiya sistemindən gəlir. Düzdür, başqa ölkələrdə də korrupsiya halları olur. Amma elə ölkələr də var ki, orada korrupsiya dövlət siyasətinin aparıcı elementinə çevrilib. Bu, artıq siyasi amillərlə bağlıdır. Məmurların işə götürülməsi, fəaliyyəti onların şəxsi keyfiyyətilə bağlı olmur, rəhbərlik etdiyi sahənin inkişafıyla qiymətləndirilmir. Onlar korrupsiya sisteminin içinə girirlər. Onların vəzifəsi də korrupsiya sisteminin elementinə çevrilmək və bu sistemdə öz üzərinə düşən funksiyanı yerinə yetirməkdir. Bu, artıq dövləti məhvə aparan xərçəng xəstəliyidir. Onu vaxtında müalicə etməyə başlayanda daha asan olur. Vaxtında müalicə etməsən, mütləq cərrahiyyə əməliyyatı keçirmək lazımdır. Azərbaycan korrupsiya problemində elə bir səviyyəyə çatıb ki, burada çox sərt cərrahiyyə əməliyyatlarının keçirilməsinə ehtiyac var.

**- Adətən, diktatorlar, avtoritarlar çirkli pulları yaxın adamlarının adıyla yuyurdular. Amma indi məlum olur ki, oliqarxlar, dövlət başçısı sərvətləri övladlarının adlarına rəsmiləşdirirlər. Sizcə, bu, nədən qaynaqlanır: yaxın ətrafa etibarsızlıqdan, yoxsa, meydan oxumaq niyyətindən?**

- Ən yüksək səviyyədən tutmuş, hansısa nazir səviyyəsinə qədər artıq belə faktlar açıqlanır. Bu yaxınlarda Beynəlxalq



Avtovağzal Kompleksilə bağlı məlumatlar üzə çıxdı. Məlum oldu ki, kompleksin sifariş verilməsindən tutmuş, tikilməsi, kimin adına rəsmiləşdirilməsinə qədər bütün məsələlər bir ailənin içində həll olunub. Bunun səbəbini yalnız siyasətdə axtarsaq, onda sual meydana gələr ki, niyə başqa ölkələrdə belə deyil. Hər halda hamı çalışır ki, bunu ört-basdır etsin. Ola bilsin ki, burada daha çox psixoloji amillər hansısa rol oynayır. Həddən artıq arxayınlıq, təcrübəsizlik amilini də qeyd etmək lazımdır.

Azərbaycanda son 5-6 ildə, hətta avtoritar rejimlərin çoxlarına da xas olmayan hadisələr baş verdi. Təəccüb edirsən ki, nəyə görə belə addımlar atılır? Xeyli avtoritar rejimlər görmüşük. Elələri olub ki, hətta tarix onlara müəyyən mənada bəraət də qazandırıb.

**- Islamçıları da nəzərə alsaq, son bir neçə ayda həbs olunmuş 20-yə yaxın siyasi məhbus var. Bununla belə, cəmiyyətdə fikir formalaşıb ki, artıq hakimiyyət əvvəlki kimi qorxu yarada bilmir. Sizcə, Azərbaycan cəmiyyətinin pessimizm limiti bitib?**

- Deməzdim ki, artıq pessimizm limiti bitib. Hər halda, siyasi məhbusların müdafiəsi kampaniyasında iştirak edirəm. Bu məsələdə Azərbaycan cəmiyyətində vahid fikir var. Ziyalılar, partiyalar da bunu ifadə edirlər ki, siyasi həbslərə son qoymaq lazımdır. Ancaq cəmiyyətdə pessimizmin aradan qaldırılması məsələsində vəziyyət daha mürəkkəbdir. Ərəb dünyasında baş verən proseslər Azərbaycana da çox ciddi təsir edib. Əminəm ki, Azərbaycan xalqının seçimi, cəmiyyətin mövqeyi gec-tez hakimiyyəti siyasi dəyişikliklərə məcbur edəcək. Bunun hansı formada olacağı isə başqa məsələdir. Bir neçə ssenari və variantlar var. Əminəm ki, Azərbaycan cəmiyyətini uzun müddət orta əsrlər modeli ilə idarə etmək mümkün olmayacaq. Azərbaycan xalqı müsəlman, Şərq xalqları arasında ən yüksək pillədə dayananlardan biridir. Tarixən də belə olub. Azərbaycan xalqı ən modern təfəkkürə malik xalqdır. Ona görə də bu məsələdə həqiqətən də nikbinəm. Bu məsələdə pessimist fikirləri aradan qaldırmaq istəyirəm.

Ancaq Azərbaycan cəmiyyətində inamsızlıq sindromu yaranıb. Bunu da açıq etiraf etməliyik. Hətta "icazəli" mitinqlərə gələnlərin də sayı azalıb. Seçkilərdə də əhalinin fəallığı zəif oldu. Bu da inamsızlıq sindromuyla bağlıdır. Belə bir sual da yarana bilər ki, inamsızlıq yalnız xofdan irəli gəlir, yoxsa siyasətçilərin də hansısa səhvi var?

Azərbaycan cəmiyyətində sosial sifariş vardı ki, müxalifət partiyaları bir araya gəlsin. Bu, vaxtında reallaşmadı. Üçüncü qüvvə ilə bağlı sosial sifariş var idi. Bu da ondan irəli gəlirdi ki, hakimiyyətlə müxalifət çox kəskin şəkildə bir-birinə qarşı gedirdi. Cəmiyyətin bir hissəsi hesab edirdi ki, ortaya üçüncü qüvvə də girməlidir. O qüvvə də demokratik olmalıdır. Bu kəskin münasibətlərdə balans yaratmalı, hətta güclərin balansını dəyişməlidir. Çünki radikal mübarizəyə qoşulmayan, ancaq demokratiyanı dəstəkləyən təbəqə var idi. Onların mövqeyindən istifadə etmək həm güclərin balansını dəyişə, həm də cəmiyyətin fəallaşmasına səbəb ola bilərdi. Bu sosial sifariş də ötən 10 ildə reallaşa bilmədi.

Indiki halda da sosial sifariş yenidən formalaşır. Artıq cəmiyyətdə partiyaların bir araya gəlməsi kimi sosial sifariş görmürəm. Hər halda maraqlı eksperiment oldu. 2010-cu il parlament seçkilərindən öncə AXCP və Müsavat partiyasının birləşməsi ideyası meydana gəldi. Bu ideya böyük dəstək qazandı. Üç-dörd ay müəyyən bir kampaniya aparıldı. Amma seçkidə fəallığın aşağı olması göstərdi ki, bu da elektorata böyük təsir etmədi. Ona görə də seçkidən sonra bu məsələ müəyyən mənada gündəmdən çıxdı. Belə bir şüar irəli sürüldü ki, "bir üstə gəl bir, gərək iki olsun". Əgər bir olsa, onda bu prosesin mənfi tərəfləri müsbət tərəflərindən daha çoxdur.

**- Birlik məsələsində Sizin mövqeyinizi bilmək maraqlıdır. Sizcə, zəruri olan adamların və təşkilatların ideya və enerjisini qarşılıqlı paylaşması daha doğru olardı, yoxsa "hamı bir yerdədir və heç kim qərara gələ bilmir" formatında birlik yaratmaq?**

- Çalışıram ki, Ictimai Palatanın addımlarına dəstək verim. Eyni zamanda, onun içində gedən diskussiyalara qatılmamağa çalışıram. Hesab edirəm ki, o quruma daxil olan adamların özləri diskussiyalar aparıb, müəyyən qərarlar verməlidir. Buna ümimi şəkildə qiymət vermək istəyirəm.

Hərçənd maraqlı tərəfəm, istəyirəm ki, Azərbaycanda demokratik düşərgə, partiyaların və ictimai birliklərin yaratdığı koalisiyalar güclü olsun. Yəni, məqsəd ümumidir - istəyirik ki, Azərbaycanda avtoritarizmə son qoyulsun, ölkə demokratiya yolu ilə getsin. Adətən hansısa prosesə qiymət verəndə nəzərə almaq lazımdır ki, hədəf nə idi, məqsəd nə idi. Çünki hədəfdən çox şey asılıdır. Ictimai Palatanın fəaliyyətinə qiymət verəndə hədəfin nə olduğunu müəyyənləşdirmək lazımdır. Əgər hədəf Azərbaycanda insan haqları, sərbəst toplaşmaq azadlığının pozulmasına dünyanın diqqətini cəlb etmək, demokratiya uğrunda mübarizə aparan təşkilatların məhvini aradan qaldırmaq idisə, hədəfə çatıblar. Əgər hədəf ərəb dalğasından istifadə edərək Azərbaycanda da böyük güc formalaşdırıb hakimiyyətə alternativ qüvvə yaratmaq idisə, hələlik bu hədəfə çatılmayıb.

Məni burada ən çox narahat edən məsələ odur ki, üç aksiyada iştirakçıların sayı azalan xətlə gedirdi.

Ictimai Palatanın hədəfləri çoxdur. Ona görə də cəmiyyətdə hədəflə bağlı müxtəlif fikirlər səslənir. Hətta Ictimai Palata üzvlərinin bəziləri deyir ki, bizim hədəfimiz demokratik islahatlar, vəziyyətin dünya ictimaiyyətinə çatdırılmasıdır. Bəziləri hədəfi daha böyük götürürlər. Mitinqə "Istefa!" və başqa şüarlarla çıxırlar. Ona görə də həm Ictimai Palatanı çox yüksək qiymətləndirənlərin, həm də nöqsanlar görənlərin sözlərində müəyyən həqiqət var.

Vacibi odur ki, Ictimai Palatanın gələcək fəaliyyətilə bağlı aydın strategiyası olsun. "Yol xəritəsi"ndə də iki məsələ bir-birinə qarışıb. Bizim 7 addım sənədimizdə kimin hakimiyyətdə olması məsələsinə, ümumiyyətlə, toxunulmayıb. Biz ona toxunuruq ki, Azərbaycan hansı yolla daha ağrısız inkişaf edə bilər. Bunu kimin edəcəyi həmin sənədin hədəfi deyil. Bunu daha məqbul variant hesab edirik. Bu varianta hər kəs dəstək verə bilər, daha geniş auditoriya üçün nəzərdə tutulan yanaşmadır.

Ictimai Palatanın sənədində isə demokratiyaya doğru "Yol xəritəsi" də var, hakimiyyətin bölüşdürülməsi prinsipi də. Bu, artıq hakimiyyətə gəlmək istəyən siyasi qüvvənin hədəfidir. Demokratik islahatlar paketi isə islahatların hədəfidir. Ona görə Ictimai Palatanı müdafiə edənlər deyir ki, bu qurum hakimiyyəti bəzi məsələlərdə geri oturtdu, dünya ictimaiyyətinin diqqətini ölkəyə cəlb etdi.

Tənqid edənlərin hədəfi daha böyükdür. Onların fikrincə, elə bir güc formalaşdırmaq lazımdır ki, on minlərlə adam meydana çıxsın və hakimiyyət məsələsinin həllində də əsas güc mərkəzinə çevrilsin. Bu baxımdan nə Ictimai Palatanı tənqid atəşinə tutanların fikirlərini bölüşürəm, nə də "hər şey əladır" deyənlərin. Həqiqət də həmişə olduğu kimi, nisbidir.

***Fizzə Heydərli,***
***Seymur Həzi***
***musavat.com***



## Termê 497 enfalkiriyên din dê bên Kurdistanê

Piştî ku di dema borî, hikûmeta Herêma Kurdistanê li Parêzgeha Dîwaniyeyê 3 gorên komî vekir û termê enfalkiriyan tê de dîtin, niha jî hemû amadekariyên wê hatiye kirin da ku wan terman vegerînin Herêma Kurdistanê.

Li ser wê meselê, Dr. Yasîn Kerîm, rêvebrerê peymangeha pizîşkî ya dadwerî li Herêma Kurdistanê taybet ji PUKmedia`yê re ragehand ku hemû tişt amade ye û di demeke nêzîk de termên wan şehîdan dê vegerin axa Kurdistanê.

## Di êrîşên 6 rojan de 300 kes li Hemayê hatine kuştin

Avestakurd – Bajarê Hemayê di nava gola xwînê de ye! 250 tankên Hema ji her alî ve dorpêç kirîn, kolanên bajêr didin ber topan û her diçe jimara kuştiyan zêde dibe.

Bajarê Hemayê di nava gola xwînê de ye! 250 tankên Hema ji her alî ve dorpêç kirîn, kolanên bajêr didin ber topan û her diçe jimara kuştiyan zêde dibe. Li gor çavdêrên mafê mirovan hêzên Sûriyê di nava 6 rojan de herî kêm 300 kes li Hema kuştiye û piraniya kuştiyan jî, ji kesên hatîn birîndar kirin û di encama nebûna derfetên dermankirinê mirine. Her wiha, di xwepêşandanên duhî de li roja "Îna xudê li gel me ye" de, di encama êrîşên hêzên Sûriyê li gelek bajaran 58 kes hatiye kuştin.

## "Kemal Burkay ligel Erdogan dicive"



Li gora jêdereke ku nexwest em nav eşkere bikin, siyasetvan û nivîskarê Kurd Kemal Burkay wê ligel serokwezîrê Tirkiyê Receb Erdogan bicive.

Hevdîtn wê li Enqere pêk were.

Weke tê zanîn Burkay li ser banga Erdogan vegeriya welatê xwe.

## Îro fîlmê (MIN DÎT) di televîzyona almanî de tê nîşandan



Fîlmê derhênerê Kurd yê ciwan Miraz Bêzar, ya bi navê Min Dît, di televîzyona almanî WDR de tê nîşandan.

Fîlm li ser jiyana zarokên Diyarbekirê ye.

## Amerîka bang li hemwelatiyên xwe kir ku Sûriyê terk bikin



Wezareta Amerîka ya Derve bang li hemwelatiyên xwe kir ku Sûriyê terk bikin û çûn û hatina li Sûriyê nebe.

Wezareta Amerîka ya Derve bang li hemwelatiyên xwe kir ku Sûriyê terk bikin û çûn û hatina li Sûriyê nebe. Di rewşeke ku tund û tûjî her diçe li Sûriyê zêdetir û bilindtir dibe, Wezareta Amerîka ya Derve di daxuyaniyek de, hemwelatiyên xwe hişyarkir ku bi lez ji Sûriyê derkevin û çûn û hatin li Sûriyê neyê kirin.



## Serok Barzanî pêşwazî li kesayetiyên Bakurê Kurdistanê kir

Îro li havîngeha Selahedînê, serokê Herêma Kurdistanê, Mesûd Barzanî pêşwazî li kesayetiyên Kurdî yên Bakurê Kurdistanê kir.

Her weha hinek ji wan kesayetiyan: Dengîr Firat, Îhsan Aslan, Sebah Cewahirî û Necat Nasir Oxlo bûn.

Di wê hevdîtinê de, ji aliyê xwe ve, kesayetiyên Kurd, ji ber koça dawî ya dayîka serok Barzan, Hemayîl xanê, serxweşiyê xwe pêşkêş kirin.

Ji aliyê xwe ve jî, serok Barzanî spasiya şandeya mêvan kir.

## Bexdad: Serok Talebanî pêşwazî li tîpa Orkestraya Kurdî kir



Duh li bajarê Bexdadê serokkomarê Êraqê rêzdar Celal Talebanî pêşwaziyeke germ li tîpa Orkestraya Kurdî kir.

Her wiha di wê Dîdarê de, serok Talebanî pîrozbahiyên xwe ji kar û xebata hunerî ya wê tipê re pêşkêş kir.

